**QUMRU QÜDRƏT**



# NAKAM EŞQİN NİNNİSİ

***(Təkrar nəşr)***

**Redaktor:** *İdeya və layihə rəhbəri, baş tərtibatçı: Vidadi Turan Ağdamlı- Azərbaycan və İraq-Türkmən Yazıçılar Birliyinin üzvü, şair publisist, Dövrün Vətənpərvər şairi, Xalqın nüfuzlu ziyalısı, Qızıl qələm, Ulu Öndər, Xəlil Rza Ulutürk, Vintsas, Ziyadar, Azərbaycan bayrağı, Qarabağ Azərbaycandır!, Ali Baş Komandan, Vətən, Səməd Vurğun, Azərbaycanın fəxri, Turan yolu, Bayram Bayramov, Həkəri, Xurşidbanu Natəvan, Şərəfli ömür yolu, Mustafa Museyiboğlu diplomları ilə mükafatlandırılmışdır. Həkəri qəzetinin şöbə müdürü, Radio FM-in xüsusi müxbiri, YİN-nin Ağsaqqallar Şurasının sədri.*

**Texniki redaktor:** *Mehri Ağdamlı-şair publisist, İrak-Türkmən Yazıçılar Birliyinin üzvü, Dövrün ziyalısı, Vətənpərvər şairə, Qızıl qələm, Ulu Öndər, Xəlil Rza Ulutürk, Azərbaycan bayrağı mükafatçısı. Ali Baş Komandan, Vətən, Səməd Vurğun, Vidadi-70, Vintsas, Ziyadar fəxri diplomların mükafatçısı, YİN-in üzvü.*

**Korrektor:** *Tərанə Tunar-şair publisist, Bayram Bayramov, Xurşidbanu Natəvan, Vidadi-70, Vintsas , Ziyadar, Vidadi Turan Ağdamlı və YİN-in Zəfər günü fəxri diplomlarının mükafatçısı. YİN-in Qaradağ r/n sədr müavini.*

**Dzaner:** *Fariz Məhərrəmov*

**“Nakam eşqin ninnisi” şeirlər kitabı Bakı “Maarif” nəşriyyatı, 2023. xxx səh.**

**“Heroqlif”**

**İSBN:**

# ÖN SÖZ

Mən Əhmədova Qumru Teymur qızı "Nakam eşqin ninnisi" kitabının təkrar nəşri üçün oxuyub onu çapa hazırladım. Onun 2005-ci ildə nəşr olunmuş kitabda yazdıqlarını bir daha nəzərdən keçirdim. Həmişəki kimi şairənin yaradıcılığın bir neçə yerə bölmək olar. Kitabı diqqətlə oxudum. Onu deyə bilərəm ki, bu kitab da əvvəlki kitabları kimi gözəl bir əsərdir. Eyni zamanda bu əsər yuxusuz gecələrin, gərgin axtarışların bəhrəsidir. Xüsusiylə dil-üslub xüsusiyyətləri çox xoşuma gəldi. Mən şairənin şeirlərini oxuduqca onun şeriyyət dünyasında tutduğu yolu açıq və aydın gördüm. Mənə elə gəlir ki, sairənin Vətən, ana-ata və övlad sevgisiylə, ümumiyyətlə yazdığı seirlər müasir Azərbaycanımın hər bir gənc oxucusuna örnəkdi. Hər bir gənc bu şeirləri oxuduqca sevginin müqəddəsliyin duyur, Vətən, ana-ata, övlad sevgisini anlayır və bu sevgiylə, ülvü hislərlə yaşayır, özündə məsulliyyət hiss edib müqəddəs ali sevgi yollarında addımlamağı bacarır. Bəzən oxucu bu misralarda ali sevginin həm şirinliyini, həm də a *cısını anlayır.* Lazım gəlsə bu sevginin həsrəti ilə yanmağı bacarır. Onun şeirlərində, Vətən həsrəti, Vətənə bağlılıq gözəl çalarlarla verilmişdir. O, öz yazıları ilə tez-tez xəyalən Qarabağ torpaqlarını dolanır, onların h*əsrəti ilə yaşadığını bildirir.* Qumru xanımın bu kitabı mənə elə gəlir ki, təkrar çapa gedə bilər. Şairəyə bu yolda uğurlar və növbəti kitablarının çapa hazırlanmasını arzılayıram.

***Vidadi Turan Ağdamlı: Azərbaycan və İraq-Türkmən Yazıçılar Birliyinin üzvü. "Həkəri" qəzetinin şöbə müdürü, Radio FM-n xüsusi müxbiri.***

# ÖMRÜN POETİK ÜRƏYİ

Qadın ürəyi!!! Mən bu ürəkdən həssas, bu ürəkdən duyğulu, bu ürəkdən nəcib və pak başqa bir ürək tanımıram. Qadın ürəyi ehtiraslı məhəbbət ocağı, lirik poeziya bulağı, gah vulkana, gah ipəyə çevrilən duyğular mənbəyidir. Qadın ürəyi ana ürəyidir, yaratdığına və ürəyi of demədən bəxş etməyə qadir bir ürək. O sözün həqiqi mənasında məhəbbət məbədidir. Qumru Qüdrətində ürəyi belə bir ürəkdir. Poetik hisslərlə, səmimi duyğularla dolu bir ürək. O, bu duyğuları şeirə, poeziyaya çevirmək istəyəndə hiss edirsən ki, məsum körpə kimi çəkinir, qısılır, şerinin yaxşı alınmayacağından ehtiyat edir. O, ilk şeirlərini iki-üç il bundan əvvəl məsləhət üçün mənə təqdim etmişdi. Oxudum. Gördüm ki, Qumrunun qəlbində poeziya bulağı var. Lakin gördüm ki, bu bulaq bolluca çıxmaq üçün gücsüzdür, iti, kəsərli təşbihləri yoxdur, şerin adi texnikasınada yiyələnməyib. Poetik fikirlər onun ürəyindən nizamla axıb çıxmır. Bir neçə görüşdən sonra Qumru şeirin texnikasına yiyələndi, poetik sözü qəlibə necə salmağı bacardı və nəticədə poeziyaya daha ürəkdən bağlandı. Budur onun qarşımda iki kitabı var: “Bir ürəyin nəğmələri” və çapdan çıxacaq “Nakam eşqin ninnisi”. Sonuncu kitabda Qumrunun son illərdə yazdığı ictimai, lirik şeirləri toplanmışdır. Bu şeirlərdə diqqəti çəkən ən mühüm cəhət Qumru ürəyinin nəcib duyğularıdır. Bu duyğuların ən çoxu, Vətənə, övlada, doğma xalqına, məhəbbət duyğularına, vəfa, sədaqət, etibar hisslərinə həsr edilmişdir.

***Qaş çatılıb, əyilibdi yay kimi,***
***Yaş tökülür gözlərindən çay kimi,***
***Bu eşqimdən mənə düşən pay kimi,***
***Kipriyimin giləlınib nəm üstə.***

*Taleyimdən gileyliyəm neyləyim?*
*Saz götürüb eşqimi car eyləyim,*
*Zilim yoxdu, barı bəmlə söyləyim,*
*Taleyimdir yazılıbdı bəm üstə.*

*Pak eşqimdən nə gizlədim, doğrusu,*
*Qaldı mənə ürəyimin ağrısı,*
*Ötüb keçən gəncliyimin çalğısı,*
*Köklənibdi kədər üstə, qəm üstə.*

*( Nakam eşqin ninnisi)*

Qumrunun şeirlərini həqiqətən də bir qadın ürəyinin "Qəm üstə", "Bəm üstə" köklənmiş təranələr də adlandırmaq olar. Lakin bu qəmdə, bu bəmdə əyilməyən vüqar da var.

*Sən idin bir zaman mənim gərəyim,*
*Gələcək xoş günüm, arzum, diləyim,*
*Səninlə düzəlməz daha ürəyim,*
*Əhv etməm, sən məndən üzür istəmə.*

*Tutduğun o yolla dayanmadan get,*
*Seçdiyin gözəllə sən murada yet,*
*Mənim həyatımı, qəlbimi tərk et,*
*Əhv etməm, sən məndən üzür istəmə.*

*(Əhv etməm)*

Kitabda belə lirik hisslər çoxdu. Poeziyanın çətin yollarında özünə məxsus dəsti xətti, poetik nümunələri olan Qumru Qüdrətə daha böyük uğurlar arzulayıram.

***Həmid Arzulu -Yazıçı Dramaturq şair***




# MƏN QURBAN OLARAM VƏTƏNƏ, SƏNƏ

## YENİLMƏZ RƏHBƏR

Allahım səksən il yazdı adına,
Sən bütün ömrünü verdin Vətənə.
Yüz səksən il ömrün olsaydı yenə,
Onuda verərdin doğma Vətənə.

Azadlıq yolunda qılınc çalmısan,
Milli lider adın xalqdan almısan.
Adına bir orden təsis ediblər,
Sən neçə ölkədən orden almısan.

Ey milli Öndərim, ey ölməz atam,
Fikrim cövlan edir qoymayır yatam.
İndi sən dünyada olmasan da bil,
İstərəm arzunu arzuma qatam.

Deməki savadın yol verməz buna,
Ürək sözün deyər hər yerdə, ana.
Sevibdi el səni bir ata kimi,
Nə ziynət vursalar layiqsən buna.

Ordenin mübarək əyilməz sərvər,
Sən buna layiqsən, ey Ulu Öndər.
O böyük ordenlə təltif olunsun,
Torpağı qaytarsın yenilməz rəhbər.

***18.04.2005***

## HEYDƏR NAXÇIVANIN MƏRD BALASIDIR

Naxçıvan alınmaz möhtəşəm qala,
Naxçıvan ən qədim, ən ulu diyar.

Qorunub saxlandı onun əliylə,
Xalqımız yaşayır indi bəxtiyar.

Eşidək biz onun hər bir kəlməsin,
Gəlin əməl edək hər bir sözünə.
Bu gün Naxçıvanda yaşayan kəsin,
Heydər nuru düşüb gülər üzünə.

Heydərin adıyla öyünür hamı,
Böyüyün, kiçiyin öz babasıdır.
Heç vaxt unutmayıb o Naxçıvanı,
Heydər Naxçıvanın mərd balasıdır.

Bu torpaq müqəddəs sayılıb hər an,
Bütün yağılara sinə gəribdi.
O bizə bəxş edib yenilməz Soltan,
O bizə dönməzlik, inam veribdi.

Gəlin qədrin bilək biz bu torpağın,
Biz onu qoruyaq gözümüz kimi.
Heydər ucaltdığı üç rəng bayrağı,
Gəlin bizdə sevək özümüz kimi.

## XALQINA DAYAQSAN

O vaxt ki, başladın sən böyük işə,
Qurub, yaratmağı eylədin peşə,
Bu iş səndə dönüb artıq vərdişə.
Bu yolda sən nursan, çıraqsan Vasif,
Gələcək xoş gündən soraqsan Vasif.

Naxçıvan gül açıb sənin sayəndə,
Xalqın üzü gülür Vasif deyəndə,

Xoşbəxt yaşayırıq  gözəl Vətəndə.
Xalqına köməksən, dayaqsan Vasif,
Gələcək xoş gündən soraqsan Vasif.

Hər kənddə ucalır bir yeni məktəb,
Məktəbdə çox şagird maariflənəcək,
Gələcək nəsilə olmusan örnək.
Hələ yazılmamış varaqsan Vasif?
Gələcək xoş gündən soraqsan Vasif.

Gedirsən hər zaman sən düz yolunla,
On illik işləri gördün bir ilə,
Artıq yayılıbdı şöhrətin elə.
Olasan pis gözdən sən iraq Vasif,
Gələcək xoş gündən soraqsan Vasif.

İnsanlığın sənin durubdu başda,
Şöhrət qaqzanmısan sən ki, bu yaşda,
Xalqın qürur duyur gördüyün işdən.
Xalqa yol göstərən mayaksan Vasif,
Gələcək xoş gündən soraqsan Vasif.

***26.06.2001***

## MƏN QURBAN OLARAM VƏTƏNƏ, SƏNƏ

Ana çox şairlər sənə söz qoşub,
Bulaq tək çağlayıb dəniz tək coşub,
Mənim də ilhamım çağlayıb daşıb.
Mən də bu ömrümü borcluyam sənə,
Mən də söz qoşuram sanına ana,
Şair tək söz qoşum şəninə ana.

Nə qədər dünyada vardısa ana,
İnsanlıq borcludu daima ona.
Sən qələm vermisəm mənim əlimə,
Analar anası deyirlər sənə,
Mən də öyünürəm səninlə ana.

Sən ki məhəbbətin ilk nübarısan,
Həcərsən, Nigarsan, igid yarısan,
Saçların ağarıb, dağ vüqarlısan.
Əyilib qarşında baş əyim sənə,
Sənin ağ saçına qurbanam ana.

Vətənin uğrunda yanırsan oda,
Bir qarış torpağı verməzsən yada,
Vətən ana olar dönüb övlada.
Mən qurban olaram Vətənə, sənə,
Söz qoşum bu dağlı Vətənə, ana.

Vətənlə çəkilib adın birlikdə,
Səriştəm yox mənim bir şairlikdə,
Qədrini biz bilək kaş dirilikdə.
Ürəkdən gələni mən dedim sənə,
Bağışla vardısa nöqsanım ana.

***11. 2003***

## SÖZ VERİRƏM

Söz verirəm sənə Şəhid qardaşım,
Mərd oğullar, igid qızlar yetirrəm.
Azad olar Vətənin hər bir daşı,
Torpağında qızıl güllər bitirrəm.

İgidlərim at belinə qalxacaq,
Düşmənin canına qorxu salacaq.
Yağı düşmən igidlərdən qorxacaq,
Mərd igidlər qanımızı alacaq.

Vətənimdən çıxaracaq yağını,
Qurtaracaq ulu Murov dağını.
Qaytarıb Laçını, Qarabağını,
Xankəndinə vurar al bayrağını.

Qanınla boyanıb al rəngə bayraq,
Qanınla suvarılıb bu ana torpaq.
Erməni izini bu yurddan silsək,
Qisasın o zaman alınar ancaq.

Başa çatar bu ayrılıq, bu nisgil,
Yağılardan azad olar torpağım.
Gülüstana çevirərik elləri,
Vətənimdə gözəl olar novrağım.

***17.01.2004***

## EL QIZIYAM

El qızıyam, elim igid bil məni,
Həcər kimi, Nigar kimi yaşaram.
Vətənimdən yağıları, düşməni,
Çıxarmaqçün dağ, dərəni aşaram.

Ey igidlər, siz durmayın, atlanın,
El yolunda əziyyətə qatlanın.
İgid gərək mürgüləyib yatmasın,
Xan Araztək kükrəyərəm, daşaram.

Qurbanıyam sizintək ərənlərin,
Əlində avtomat tutan əsgərin.
Vətənində yurdsuz qalan kəslərin,
Köməyinə nəğməm ilə qoşuram.

Siz ey Vətənimin ər igidləri,
Hay desəniz  hayınızdan coşaram.
Qalib olan əsgərlərə, mərdlərə,
Qalibiyyət nəğməsini qoşaram.

***16.12.1999***

## BİRLƏŞ MƏNİM XALQIM

Birləş mənim xalqım, yumruqtək birləş,
Vardır bayrağımda birləşmiş üç rəng.
Biri qırmızıdı-azadlıq yolu,
Digəri yaşıldır-islamın qolu.
Biri də göy rəngdir, göy türk rəmzidir,
Hər üçü bizlərə doğma, əzizdir.
Üç rəng birləşərək olubsa bayraq!
Biz niyə qardaşlar ayrılıq salaq?
Birləşib bir olsa xalq igidləri,
Silinər yurdumdan düşmən izləri.
Millətim, birləşib bir qəlb, bir can ol,
Qüdrətli, möhtəşəm Azərbaycan ol!
Torpağı qaytaraq gücümüzlə biz,
Qoruyaq, güclənsin qoy Vətənimiz.
Biz bu siyasətlə qalib çıxarsaq,
Vətən düşmənlərdən azad olacaq.
Bayrağın üstündə aypara, ulduz
Ulduztək parlasın gözəl yurdumuz.
Bir dəfə qalxıbsa bu ulu bayraq,

Yurdumda hər zaman dalğalanacaq.
Birləş mənim xalqım, bir qəlb, bir can ol,
Möhtəşəm, qüdrətli  Azərbaycan ol!

***22. 06. 2001***

## QANLI 20 YANVAR

Yenə yaxınlaşır o qanlı gecə,
Yenə də oyanır nifrət canımda.
O qanlı gecəni unudum necə?
Yaşayır ömrümün hər bir anında.

O qanlı yanvarın qırğınlarında,
Çox icid qırıldı, çox igid öldü.
Azadlıq yolunun qurbanlarının,
Bakı bir gecədə qanıyla doldu.

Millət əliyalın çıxdı yollara,
Düşmənə tanıtdı öz qeyrətini.
Köksünə sancılan güllələrlə o,
Yağıya göstərdi dəyanətini.

Əliyalın millət axıb meydana,
Azadlıq istəyir, azadlıq deyir,
Qıraraq köləlik zəncirlərini,
Şəhid köynəyini əyninə geyir.

İyirmisi yanvar qanlı bir qırğın,
İnana bilməyir xalq xəyanətə.
Tanklar fərq qoymayır qara, ağına,
Dünya susub baxır bu cinayətə.

Ölümün gözünə baxırdı xalqım,
Bakı bir dəniztək çalxalanırdı.
Hələ görünməmiş belə bir dəhşət,
Bakı alışırdı, Bakı yanırdı.

Yenə yaxınlaşır o qanlı gecə,
Yenə də oyanır canımda nifrət.
Unutsun millətim bunları necə?
Heç yaddan çıxarmı belə xəyanət?

Millət azadlığı qanla alırdı,
Alırdı, gör neçə qurbanı ilə.
Azadlıq yolunun o qurbanları,
Qorudu milləti öz canı ilə.

Belə igidlərin, mərd oğulların,
Ruhu qarşısında mən baş əyirəm.
Şəhid zirvəsinə ucalanlara,
Göz yaşı tökmürəm, alqış deyirəm.

Heç kəs unutmasın qanlı yanvarı,
Gələcək nəsilə bunu çatdıraq.
Xalqımın yolunda ölən canları,
Həmişə hörmətlə biz xatırlayaq.

Müstəqil dövlətik biz də o gündən,
Şəhidlər verərək qazandıq bunu.
Müstəqil dövləti qoruyaq gərək,
Müqəddəs bilərək Şəhid ruhunu.

***18.2002***

# GƏLİN GÖRÜŞÜNƏ LALƏLİ DAĞIN

Gəldim görüşünə mən bu çöllərin,
Sevindim görüncə gözəl gülləri,
Görüşə çağırdım bütün elləri.
Xaraba kəndinə, Xəçəparağın,
Gəldim görüşünə laləli dağın.

Belə bir gözəllik olar yüz ildə,
Gəlin gözəlliyi görün göz ilə,
Səpilib rəngbərəng çiçək düzlərə.
Qırmızı, çəhrayı, sarısı, ağı,
Gəlin görüşünə laləli dağın.

Heyran eyləyibdi məni bu çöl, dağ,
Qaynayıb yer altdan çağlayan bulaq,
Asəfkəf adında möcüzəli dağ.
Gəlin, siz də olun onun qonağı,
Gəlin görüşünə laləli dağın.

Çiçəklər açılıb qırmızı, sarı,
Güllərin üstündə bal yığır arı,
Alın yanınıza sevgili yarı.
Açıbdı çöl-çəmən sizə qucağı,
Gəlin görüşünə laləli dağın.

Dağların döşündə vardı neçə rəng,
Güllərin üstündə süzür kəpənək,
Gəlin gözəlliyə siz verin ahəng.
Gözünüzlə görün qaynar bulağı,
Gəlin görüşünə laləli dağın.

***28.05.2002***

## ŞEİRLƏRİM ÖZ DÜNYAMDIR

Söz incim var düzüm-düzüm,
Həm yaqut,həm firuzədir.
Dağ döşündən mən gül üzdüm,
Həm lalə,həm bənövşədir.

Sevənlərdən danışanda,
Xumarlanar mənim gözüm.
Ana Vətən söyləyəndə,
Bal tək şirin olar sözüm.

Şeirlərin altun,almaz,
Söz yığımı deyil onlar.
Qışda qarda onlar solmaz,
Qar altından parıldayar.

Ana yurdum Azərbaycan,
Öz şəhərim Naxçıvandır.
Doğma kəndim Qoşa-dizə,
Yurdum mənə bir cahandır.

Təzə şeirlər yazıram,
Misraları öz sözümdür.
Neçə incilər düzürəm,
Hər nə desəm düz sözümdür.

***26.01.1999***



# SƏNSİZ ÖLƏMMƏRƏM

## QAYIT GÖZƏLİM

Buludlar dolaraq hey boşalanda,
Dərədən-təpədən sellər aşanda,
Çayların suları dolub-daşanda.
Oturub yolunda səni gözlədim,
Səni gözləyirəm, qayıt gözəlim.

Qaranlıq çəkilib sübh açılanda,
Günəşdən şəfəqli nur saçılanda,
Səndə dönüb qayıt həmin o anda.
Yolundan gözümü çəkib, üzmədim,
Səni gözləyirəm, qayıt gözəlim.

Anadil oturub ötür budaqda,
Qızılgül ətrini yayanda bağa,
Gözlərim hey baxır yaxın, uzağa.
Yoluna baxmaqdan doyub, bezmədim,
Səni gözləyirəm, qayıt gözəlim.

Baharın nəsimi yayanda ətir,
Ağaclar başına açanda çətir,
Sən də gəl, ömrümə vüsalı gətir.
Yatıb ürəyimdə şirin sözlərim,
Səni gözləyirəm, qayıt gözəlim.

Dönəndə qaranquş yenə Vətənə,
Sən də müjdə göndər sevgilim mənə,
Qayıt gəl ömrümə, qayıt gəl yenə.
Yığılsın yollarda qalan gözlərim,
Səni gözləyirəm, qayıt gözəlim.

***20.04.2002***

# ƏHV ETMƏM

İncitdin sən məni yalan söz üstə,
Buraxdın yarıda məni üz üstə,
Bir daha qarşımda çöküb diz üstə,
Əhv etməm, sən məndən üzür istəmə.

Sən mənim eşqimi eylədin talan,
Bülbüldüm həsrətdən olmuşam nalan,
Çəkdiyin o quru nəfəsin yalan,
Əhv etməm, sən məndən üzür istəmə.

Sən mənim qəsd ilə qəlbimə dəydin,
Düz yolundan dönüb yolunu əydin.
Kaş ki, sən ömrümə heç gəlməyəydin,
Əhv etməm, sən məndən üzür istəmə.

Sən idin bir zaman mənim gərəyim,
Gələcək xoş günüm, arzum, diləyim,
Səninlə düzəlməz daha ürəyim,
Əhv etməm, sən məndən üzür istəmə.

Tutduğun o yolla dayanmadan get,
Seçdiyin gözəllə sən murada yet,
Mənim həyatımı, qəlbimi tərk et,
Əhv etməm, sən məndən üzür istəmə.

***27.05.2002***

## GƏL KÖMƏYƏ

Sən köçmüsən neçə vaxtdı dünyadan,
Çəkilmirsən bir gecə də röyamdan
Saçlarımda nişanə yox qaradan.
Sənsiz keçən bu günlərim yamandır,
Gəl köməyə, dözəmmirəm amandır.

Yaşayıram sənsiz necə, soruşma,
Gündüzüm qaralıb olubdu gecə,
Ömrüm keçir qaranlıqda astaca.
Yaşamağım elə bil ki, gümandır,
Gəl köməyə, dözəmmirəm amandır.

Bu yoxluğa görən mən necə dözüm?
Yaş tökməkdən artıq yoruldu gözüm,
Yazammıram, bəlkə tükənib sözüm.
Təbim gəlmir, bircə sətir yaranmır,
Gəl köməyə, dözəmmirəm amandır.

Sənsizlikdən sözüm düşüb dolaşıq,
Aydınlaşmır, fikirlərim bulaşıq,
Yaşasamda dünyam qarma-qarışıq.
Gözüm baxır, fikirlərim dumandır,
Gəl köməyə, dözəmmirəm amandır.

Yuxum gəlmir, oyanmışam o başdan,
Ağlamaqdan balınc islanıb yaşdan.
Dur gəl apar məni, qurtar savaşdan.
Yorma məni sən bu qədər zamandır,
Gəl köməyə, dözəmmirəm amandır.

Yoxluğuna bilməm necə dözüm mən,
Sənsizliya tapammıram çözüm mən,
Keçmişimdən əlim necə üzüm mən.
Oxum çıxıb, əldə qalan kamandır,
Gəl köməyə, dözəmmirəm amandır.

Yayı çəkib buraxmısan oxunu,
Sənsiz olmaq ürəyimə toxunur,
Yenə gəldim, həzin nəğmə oxuyur.
Tarım susub, inildəyən kamandır,
Gəl köməyə, dözəmmirəm amandır.

***29.01.2004***

## BU İMİŞ

Səninlə eylədim ömrümü yarı,
Yolunda çəkmişəm çox əzab, möhnət,
Yağıb saçlarıma dağların qarı,
Bumu ağ saçıma verdiyin qiymət?

Söndürdün bəxtimdə yanan çırağı,
Qəm-qüssə bürüdü lalə yanağı,
Susdurdun təbəssüm gəzən dodağı,
Qəlbimə toxundu etdiyin söhbət.

Çevrilib ömrümün sən hakiminə,
Toxundun qəlbimin sarı siminə,
Məni tay da etdin hələ kiminə,
Bu imiş sən mənə qoyduğun hörmət.

Sənə bəxş etmişdim şirin canımı,
Hər yerdə qorudum sənin şanını,

Sənə lazım olsa verrəm qanımı,
Ömrümü etmişəm sənə əmanət.

Bilmədim ki, sənə nə oldu belə,
Lüzumsuz sözləri gətirdin dilə,
Gözümün yaşını döndərdin selə,
Sevgimi öldürdün, etdin cinayət.

Sən mənim sevgimin qədrin bilmədin,
Sevinci kədərlə yarı bölmədin,
Söz verdin, görüşə niyə gəlmədin?
Bağışlanarmı heç belə bir minnət?

Sən məni kimlərə eyləmisən tay,
Ömrü hədər edib eyləmişəm zay,
Bu imiş haqqıma sən verdiyin pay,
Verirəm özünə, eylə qənaət.

***30. 01.2003***

## ÇOR DEMƏ

Mənim məhəbbətim, eşqim təmizdir,
Sənə olan eşqim coşan dənizdir,
Sənin xoş sözlərin mənə əzisdir,
Sən mənə bir daha acı söz demə,
Sən məni dəyişmə bir özgəsinə.

Mənə çor demisən, boynum burmuşam,
İncidib qəlbimə neştər vurmusan,
Neçə il yolunda dözüb durmuşam.
Sən mənə bir daha acı söz demə,
Sən məni dəyişmə bir özgəsinə.

Niyə təmiz eşqə məhəl qoymursan?
Sevgimə inanıb eşqə uymursan,
Özünü bu qədər naza qoyma sən.
Sən mənə bir daha acı söz demə,
Sən məni dəyişmə bir özgəsinə.

Mən sənə canımı qurban edərəm,
Sən "çor" söyləsən də, mən "can" deyərəm,
Get desən ölümə vallah gedərəm.
Sən mənə bir daha acı söz demə,
Sən məni dəyişmə bir özgəsinə.

"Çor" demə, qəlbimə dəyər sözlərin,
"Can" de ki, sevinsin, gülsün gözlərim,
Neçə il döz desən, səni gözlərəm.
Sən mənə bir daha acı söz demə,
Sən məni dəyişmə bir özgəsinə.

***07. 11. 2003***

## SƏN EŞQİMİ ÇAL

Qara tellərini ay qabağa sal,
Naz eylə, nazınla bu qəlbimi çal,
Süzdür gözlərini, sən qəlbimi al,
Çək məni çarmıxa o tellərinlə.

Bircə yol söylə ki, sevirəm səni,
Xoş sözün bəxtəvər eyləsin məni,
Sevirəm, sən də sev səni sevəni,
Qəlbimi dilləndir xoş dillərinlə.

Gəl gəzək bağçada bu bahar çağı,
Gül, çiçək bürüyüb bağçanı, bağı,

Nazlanıb sən mənə çəksən də dağı,
Başıma çələng hör yaz güllərindən.

Kaş başımı qoyam mərmər sinənə,
Dodaqların susa, gözün dillənə,
Baxışın sevirəm söyləyə mənə,
Tutasan əlimi ağ əllərinlə.

Gurlaya göy üzü, ildırım çaxa,
Buludlar boşala, bir leysan yağa,
Yağış gilələri üzümdən axa,
Yuyula yanağım yaz selləriylə.

Göz dikək səmaya, baxışaq ayla,
Gözündən üzümə sevinc yayıla,
Uzana bu görüş həftəylə, ayla,
Yaşayam mən sənin xoş illərinlə.

***05. 2000***

## XUMAR SÖZLÜ

Qara tellərini üzə düzürsən,
O xumar gözləri yenə süzürsən,
Qəmzəylə dolanıb, nazla gəzirsən,
Heyran eyləyirsən qəmzənə məni.

Sən nazlı gözəlsən, incə pərisən,
Gözəl qızlar içrə sən birincisən,
Ömrümün parlayan ülkəri sənsən,
Heyran eyləyirsən gözünə məni.

Sürməni çəkmisən o xumar gözə,
Dağların laləsi sərilib üzə,
Bal, şəkər qatırsan söhbətə, sözə,
Heyran eyləyirsən sözünə məni.

Geymisən əyninə ipəkdən donu,
Düşdüyüm bu eşqin görünmür sonu,
Deyirəm eşitsin sevdiyim bunu,
Heyran eyləyirsən özünə məni.

Düşmüşəm eşqinə, yanıram oda,
İlahi rəhm etsin, yetişsin dada.
Cilvəli gəzirsən, verirsən əda,
Heyran eyləyirsən nazına məni.

***10.03.2003***

## SƏNSİZ ÖLƏMMƏRƏM

Xəstəyəm, nə vaxtdır gəlmir sorağın,
Sən yoxsan, isinmir soyuq otağım,
Nə vaxtdır olmursan mənim qonağım.
Yoluna baxıram, tükənir səbrim,
Sənsiz öləmmərəm, od tutar qəbrim.

Ağasan, rəhm eylə sevən quluna,
Gəl dolan xəstənin sağı-soluna,
Mən çata bilmirəm haqqın yoluna.
Yoluna baxıram, tükənir səbrim,
Sənsiz öləmmərəm, od tutar qəbrim.

Gələsən, son anda tutam əlindən,
Adımı eşidəm sənin dilindən,

Həsrətin silinə, rahat olam mən.
Yoluna baxıram, tükənir səbrim,
Sənsiz öləmmərəm, od tutar qəbrim.

Gözümdən qanlı yaş axsa silmərəm,
Çəksəm də çox əzab, acı bilmərəm,
Bir dəfə üzünü görsəm ölmərəm.
Yoluna baxıram, tükənir səbrim,
Sənsiz öləmmərəm, od tutar qəbrim.

Canımı vermərəm əcəl də gəlsə,
Axirət yetişsə, dünyada dönsə,
Əğyar tənə ilə üzümə gülsə.
Yolunu gözlərəm, tükənməz səbrim,
Sənsiz ölsəm əgər od tutar qəbrim.

***12.03.2003***

## AÇAMMADIM QƏLBİMİ

Eşqin oldu yol yoldaşım,
Ömrüm gəlib çatdı sona.
Sənsiz oldu sevgim, eşqim,
Açammadım qəlbim sənə.

Mən gizlicə sevdim səni,
Tutammadım əllərini!
Xəfif əsən rüzgar kimi,
Oxşamadım tellərini.

Biz üz-üzə gələn yerdə,
Oğrun baxdım gözlərinə.

Eşitmədim səsin bir də,
Həsrət qaldım sözlərinə.

Sevgim qaldı ürəyimdə,
Bircə xəbər tutmadın sən.
Səndin arzum, diləyim də,
Şirin xəyal qurardım mən.

Xəbərin yox saf eşqimdən,
Sevdim səni canım kimi.
Ayrılmadı eşqin məndən,
Damarımda qanım kimi.

Yaşasam da bu dünyada,
Eşqin ilə qovruluram.
O illəri salıb yada,
Hey yanıram, kül oluram.

Nakam sevgi yol yoldaşım,
Ömrüm gəlib çatdı sona,
Leysan oldu göz yaşlarım,
Qəlbimi açmadım sənə.

***22.03.2003***

## QƏLBİNDƏ YAŞARAM

Neçə il mən xəstə yatdım yataqda,
Xəyalın dolandı, gəzdi otaqda,
Gözlərim dikilib qaldı uzaqda.
Ölüm şərbətini içmədim sənsiz,
Bu fani dünyadan köçmədim sənsiz.

Vaxtında eşqimi açmadım sənə,
Vaxt keçdi, taleyim gülmədi mənə,
İndi intizaram vaxtsız ölümə.
Ölüm şərbətini içmədim sənsiz,
Bu fani dünyadan köçmədim sənsiz.

Bilmədim mən səni sevdim nə qədər,
Qəlbimdə bu eşqim bağladı qəhər,
Səni sevdiyimdən tutmadın xəbər.
Ölüm şərbətini içmədim sənsiz,
Bu fani dünyadan köçmədim sənsiz.

Aradan keçibdi artıq otuz il,
Səni gəncliyimdən sevdim, onu bil,
Bircə yol gülümsə, söylə rahat öl.
Ölüm şərbətini içmədim sənsiz,
Bu fani dünyadan köçmədim sənsiz.

Artıq sevdiyimi mən söyləmişəm,
Elə bil dünyaya yeni gəlmişəm,
Qəlbində yaşaram, sanma ölmüşəm.
Ölüm şərbətini içmədim sənsiz,
Bu fani dünyadan köçmədim sənsiz.

Qalmadı qəlbimdə arzu-diləyim,
Son anda eşqinlə vurur ürəyim,
Ölüm yatağında budur diləyim.
Ölüm şərbətini içmədim sənsiz,
Bu fani dünyadan köçmədim sənsiz.

***22. 03. 2003***

## EŞQİMİ ƏLİMDƏN ALA BİLMƏZSƏN

Eşqini unudub sən bilə-bilə,
Gedib yaşayırsan sən əğyar ilə,
Həyatın keçsə də bil gülə-gülə,
Bir də sevən aşiq ola bilməzsən.

Sevgili olmaz bil sənə özgədən,
Dolanıb gələrsən özün bilmədən,
Yenə də keçərsən bizim döngədən,
Yolunu dolayı sala bilməzsən.

Sevmədiyin kəslə yaşayacaqsan,
Unudulmaz eşqi daşıyacaqsan,
Eşqin qaysağını qaşıyacaqsan,
Ağlaya-ağlaya gülə bilməzsən.

Sevgim ürəyinə bir an dolacaq,
Ürəyin, gözlərin məndə qalacaq,
Mənim həsrətimdən rəngin solacaq.
Sən məndən aralı qala bilməzsən,
Könül rübabını çala bilməzsən.

Mənimçün əbədi çox əziz olan,
Sevgimi, eşqimi eylədin talan,
Getsən də ömürlük yadigar qalan,
Eşqimi əlimdən ala bilməzsən,
Sevgilim sən mənsiz qala bilməzsən.

***20.03.2003***

## NAKAM EŞQİN NİNNİSİ

Qaş çatılıb, əyilibdi yay kimi,
Yaş tökülür gözlərindən çay kimi,
Bu eşqimdən mənə düşən pay kimi,
Kipriyimin gilələnib nəm üstə.

Ha sızladım, anlamadın sevgimi,
Bu ayrılıq yandırıbdı qəlbimi,
Kimə deyim bilmirəm bu dərdimi,
Yanıb qəlbim bir naşı həmdəm üstə.

Taleyimdən gileyliyəm neyləyim?
Saz götürüb eşqimi car eyləyim,
Zilim yoxdu, barı bəmlə söyləyim,
Taleyimdir yazılıbdı bəm üstə.

Pak eşqimdən nə gizlədim, doğrusu,
Qaldı mənə ürəyimin ağrısı,
Ötüb keçən gəncliyimin çalğısı,
Köklənibdi kədər üstə, qəm üstə.

Mən Qumruyam, bu eşqimlə çağlaram,
Nakam eşqə ninni deyib ağlaram.
İnildərəm, sinələri dağlaram,
Sevincim yox, qəm qalanıb qəm üstə.

## SƏSSİZ OLUB OTAĞIM

Bir baxışdan sevmişdim dildarımı,
Bu dünyada tapmışdım öz yarımı,
Ayırıbdı bizi fələk, Tanrımı?
Yarım gedən yollarına hey baxdım,
Yarım yoxdu, səssiz olub otağım.

Göz tikmişəm yollarına nə vaxtdı,
Vüsal məndən niyə belə qaçaqdı?
Qara olan taleyimdi ya baxtdı?
Rüzgar əsib, sönübdü gur ocağım,
Yarım yoxdu, səssiz olub otağım.

Hicranından titrəyirəm, əsirəm,
Həsrətindən ürəyimə dolub qəm,
Bu ayrılıq mənə eyləyir sitəm.
Göz yaşımdan yuyulubdu yanağım,
Yarım yoxdu, səssiz olub otağım.

Göy gurlayır, yağır leysan yağışı,
Tapammıram ürək dostu, sirdaşı,
Göz yaşlarım isladır gül balışı.
Soyuyubdur, bumbuz olub yatağım,
Yarım yoxdu, səssiz olub otağım.

Qüssə yağır, qəm tökülür üzümdən,
Sel, su axır, yaş süzülür gözümdən,
Ayrı düşən söhbətindən,sözündən.
Gileylidir, gülümsəmir dodağım,
Yarım yoxdu, səssiz olub otağım.

Özü yoxdur, gülür divarda əksi,
Gözündə oxunur sevgi nəğməsi,

Dolubdur qəlbimə xoş xatirəsi.
Xəyalı olubdur mənim qonağım,
Yarım yoxdu, səssiz olub otağım.

Nə vaxdır üzümə dəymir nəfəsi,
Dolmur otağıma gülüşü, səsi,
Yalqızam, yaşama yoxdur həvəsim.
Kaş qayıdıb dönə mənim o çağım,
Yarım yoxdu, səssiz olub otağım.

***06.04.2003***

## BRİLYANT

Xoş səsin bənzəyir bülbül səsinə,
O xumar gözlərin nur şöləsinə,
Dönürsən aşiqin ah-naləsinə,
Heyranam Brilyant sənin səsinə.

Əslinin Kərəmə meyl saldığı,
Fərhadın eşq ilə gülüb çaldığı,
Habilin əlində sevib çaldığı,
Bənzəyir kamanın inləməsinə,
Heyranam Brilyant sənin səsinə.

Yenə mikrafonu alırsan ələ,
Şirin mahnılarla gəlirsən dilə,
Sən necə oxusan xoş dəlir elə.
Sən nəşə qatırsan el nəşəsinə,
Heyranam Brilyant sənin səsinə.

***16. 04. 2003***

## ÜZÜMƏ GÜLÜMSƏ

Mən səni sevmişəm ta gəncliyimdən,
Əlimi üzmüşəm hər dincliyimdən,
Səni hər görəndə mən sevincimdən,
Uşaqtək atılıb, düşərəm yenə.
Üzümə gülümsə, gülüm bir dəfə,
Bir xoş təbəssümün bəs edər mənə.

Uşaqkən səninlə bir oynamışıq,
Sevgi necə olur, anlamamışıq,
Yenə də üz-üzə biz dayanmışıq,
Gözlərim sevinclə dikilib sənə.
Üzümə gülümsə, gülüm bir dəfə,
Bir xoş təbəssümün bəs edər mənə.

Tale ayrı salıb bir-birimizdən,
Sevgimiz silinməz xatirəmizdən,
Eşqi alammadı zaman da bizdən,
Eşqin hakim olub mənim qəlbimə.
Üzümə gülümsə, gülüm bir dəfə,
Bir xoş təbəssümün bəs edər mənə.

Tale çiynimizə qoyub ağır yük,
Hərəmiz biriylə ailəliyik,
Dünya çox kiçikdir, olsa da böyük,
Biz budur gəlmişik yenə üz-üzə.
Üzümə gülümsə, gülüm bir dəfə,
Bir xoş təbəssümün bəs edər mənə.

Tutmusan əlindən körpə bir qızın,
Üzünə baxıram qızarır üzün,
Niyə sən özündən qaçırsan özün?

Yenə də parlayır ulduz tək gözün.
Üzümə gülümsə, gülüm bir dəfə,
Bir xoş təbəssümün bəs edər mənə.

Biz yenə raslaşdıq günün birində,
Sevinci oxudum mən gözlərində,
İnan ki, mən səni xoşbəxt görəndə,
Sanki bu dünyanı verirlər mənə.
Üzümə gülümsə, gülüm bir dəfə,
Bir xoş təbəssümün bəs edər mənə.

***28.04.2003***

## YANAQLARIM NƏM

Dolubdu ürəyim, kövrəlib qəlbim,
Yenə də qəm üstə köklənib təbim,
Mən dözə bilmirəm, tükənib səbrim.
Zilə səsim çatmır, oxuyuram bəm,
Göz yaşım qurumur, yanaqlarım nəm.

Hələ həyatımda bərkiməmiş mən,
İlk zərbəni aldım öz taleyimdən,
Şikayətim vardır Tanrıya səndən.
Sevinc yox, qəm üstə qalamısan qəm,
Göz yaşım qurumur, yanaqlarım nəm.

Sevmirdin, mənimlə evləndin nədən?
Əsirgəmədim ki, heç nəyi səndən,
Bəs niyə belə tez ayrıldın məndən?
Hansı günahları işləmişəm mən?
Göz yaşım qurumur, yanaqlarım nəm.

Sevirdin, bu sevgin  bəs nə tez bitdi?
Halımı sormadan baş alıb getdin,
Xəstə yatağımda məni tərk etdin.
Kövrək ürəyimi yaraladın sən,
Göz yaşım qurumur yanaqlarım nəm.

Qəm-qüssə alnımda eyləyibdi iz,
Göz yaşım süzülüb olub bir dəniz,
Axı mən əzizdim, hamıdan əziz.
Məni belə ucuz eylədin nədən?
Göz yaşım qurumur, yanaqlarım nəm.

Qovurur qəlbimi yenə qüssə-qəm,
Həsrətin olubdu mənimlə həmdəm,
Körpə uşaq kimi kövrəlmişəm mən.
Yenə də dərd mənə eyləyib sitəm,
Göz yaşım qurumur, yanaqlarım nəm.

***21.05.2003***

## XƏYALIMDASAN

Qəlbimdə göynəyir kövrək duyğular,
Rahatlıq verməyir mənə yuxular,
Gözümdə canlanır yenə o çağlar.
Sən indi bilmirəm gülüm hardasan,
Sən mənim hər zaman xəyalımdasan.

Tənha dolanıram, gəzirəm sənsiz,
Bilmirəm mən necə dözürəm sənsiz,
Üzümə göz yaşı süzürəm sənsiz.
Sən indi bilmirəm gülüm hardasan,
Sən mənim hər zaman xəyalımdasan.

Soruşub mən səni hey soraqlaram,
Bir xəbər almayıb gizli ağlaram,
Sənlə görüşməyə ümüd bağlaram.
Sən indi bilmirəm gülüm hardasan,
Sən mənim hər zaman xəyalımdasan.

Getdiyin yerlərdən dönüb gəlmirsən,
Xəbər göndərmirsən, zəng eləmirsən,
Bəlkə yaşamırsan, bəlkə ölmüsən.
Sən indi bilmirəm gülüm hardasan,
Sən mənim hər zaman xəyalımdasan.

Dolmusan qəlbimə, içimə yenə,
Səs çatmır, ün yetmir nə edim sənə,
Yoxluğun yenə də yer edib mənə.
Sən indi bilmirəm gülüm hardasan,
Sən mənim hər zaman xəyalımdasan.

***23.11.2003***

## SEVGİSİ YAŞAR

Dindirdim qəlbindən ahlar süzüldü,
Danışdın, keçmişin iptək süzüldü.
Alıblar sevdiyin gözəli səndən,
Ah çəkdin, gözündən qan-yaş töküldü.

Sevdiyin gözəldən əlin üzülüb,
Kipriyin üstünə şəbnəm düzülüb.
Xatırladın yenə keçən günləri,
Gözündən buludtək leysan süzüldü.

Söyləyirsən vaxtsız qocalmışam mən,
Zaman saçlarıma salıbdı ağ dən.

Sevgimizi xəyanətlə bölüblər,
Sevgisiz həyatdan usanmışam mən.

Üstündən neçə il keçsə də inan,
Onun vüsalına yoxsa da güman.
Ayrılsa da səndən sevgili canan,
Sevgisi qəlbində yaşayar hər an.

Sevən yaşayırsa sevgisi ölməz,
Sevgi ürəkdədir, heç vaxt silinməz.
Sevinməsin namərd, ölsün bədxahlıq,
Daim yaşayacaq, sevgi yenilməz.

***25.01.2004***

## MƏN MƏLƏYƏM

Mən mələyəm, cavan oğlan,
Gözüm qara, qaşım kaman.
Mən ürəkdən sevdim səni,
Pak eşqimə inan, inan.

Mən olaram sənə canan,
Körpə maral, ahu, ceyran.
Bu nazımla mən özümə,
Eyləyərəm səni heyran.

Hicranıma dözsün ürək,
Min arzuyam, min də dilək.
Sən elçini göndər bizə,
Nişanlanaq deyək, gülək.

Qara teli tökdüm üzə,
Gözlərimi süzə-süzə.

Geyim gəlin paltarını,
Sən toy eylə köçüm sizə.

Mən olaram dərdə yanan,
Razı qalar sənin anan.
Lazım gəlsə mən canımı,
Eyləyərəm sənə qurban.

***25.01.2004***

## AYRILDIN

Cüt qartaltək qanad çaldıq havada,
Çox dərdlərə sinə gərdik dünyada.
Gün görməmiş qurduğumuz yuvada.
Yalan sözə niyə uydun, ayrıldın?!
Söylə, məndən nə tez doydun, ayrıldın?

Bu dünyada gün görmədən yaşadıq,
Bulud kimi dolduq, dolduq boşaldıq.
Sən getmisən, indi yerin boş qalıb.
Soğan kimi məni soydun, ayrıldın,
Söylə, məndən nə tez doydun, ayrıldın?

Hay çəkərəm, səsim tutar cahanı,
Oynayardım sən çaldığın havanı,
Sən uçurtdun qurduğumuz yuvanı.
Qürrələndin, özün öydün, ayrıldın,
Söylə, məndən nə tez doydun, ayrıldın?

Yanıb-yanıb dərd əlindən qovruldum,
Alışmadım, közərərək kül oldum,
Əsdi külək, küləklərlə sovruldum.

Məni niyə ağlar qoydun, ayrıldın?
Söylə, məndən nə tez doydun, ayrıldın?

Ağlayaram göz yaşımı silmədən,
Bu eşq başa çatdı deyib, gülmədən,
Bəlkə səni yordum, özüm bilmədən?
Ürəyimi niyə oydun, ayrıldın?
Söylə, məndən nə tez doydun, ayrıldın?

Baş götürüb öz yuvamdan qaçaram,
Üz tutaram, dərgaha əl açaram,
Qoşularam xəyallara, uçaram.
Dolu kimi məni döydün, ayrıldın,
Söylə, məndən nə tez doydun, ayrıldın?

Bilmirəm heç sənsiz necə dözərəm,
Keçmişimi hey üzərəm, düzərəm,
Göz yaşımı gecə-gündüz süzərəm.
Gözlərimi ağlar qoydun, ayrıldın,
Söylə, məndən nə tez doydun, ayrıldın?

***06.03.2004***

## TALEYİMDƏN UMDUM, KÜSDÜM, GƏLMƏDİN

Uyaraq əğyarın nahaqq sözünə,
Əziyyət eylədin mənə, özünə
Röyamda gözünü dikdin gözümə.
Yuxuları necə yozdum, gəlmədin,
Gözlərimdən qan-yaş süzdüm, gəlmədin.

Heç bilmədim nədir mənim günahım,
Qalxıb göy üzünə dirəndi ahım,

Taleyimi qara yazdı Allahım.
Taleyimdən umdum, küsdüm, gəlmədin,
Gözlərimdən qan-yaş süzdüm, gəlmədin.

Atdın məni belə cavan yaşımda,
Tənə etdi mənə yar, yoldaşım da,
Gəlib dayanmışam yolun başında.
Gözləməkdən doydum, bezdim, gəlmədin,
Gözlərimdən qan-yaş süzdüm, gəlmədin.

Ah çəkdim, ahımdan rəngim saraldı,
Qara saçlarımı dümağ qar aldı,
Yoluna baxmaqdan gözüm qaraldı.
Ümüdümü daha üzdüm, gəlmədin,
Gözlərimdən qan-yaş süzdüm, gəlmədin.

Keçmişimiz göz önündə canlandı,
Göz-gözə sataşdı, yanaq allandı,
Düşündükcə dünya tərsə dolandı.
Keçmişimi üzdüm, düzdüm, gəlmədin,
Gözlərimdən qan-yaş süzdüm, gəlmədin.

Heç bilmədim nəymiş mənim günühım,
Qalxıb göy üzünə dirəndi ahım,
Talehimi qara yazdı Allahım.
Taleyimdən umdum, küsdüm, gəlmədin,
Gözlərimdən qan-yaş süzdüm, gəlmədin.

***15.03.2004***

## GÖZLƏRİN SƏNİN

Gözlərin elə bil geniş birümman,
Tərtəmiz səmaya oxşadır səni.
Dalğalı dənizdir yumduğun zaman,
Açanda göy-gölə oxşadır səni.

Gözlərin elə bil yamyaşıl zəmi,
Kipriklər düzülmüş çinar meşəsi.
Kipriyi göz üstən qaldıran zaman,
Oyanır qəlbimin eşqi, nəşəsi.

Gözlərin mavidir, mənalı, dərin,
Tərif eyləməyə söz tapammıram.
Sonsuz bir ümmandır, yoxdu mehvəri,
Odur ki, sahilə mən çatammıram.

***20.04.2000***

## VƏFASIZ

Getmişdim eyləyim Vətənə qulluq,
Sən öylə bildin ki, getdim bir yolluq.
İl yarım dözmədin ayrılığıma,
Könlünü bəxş etdin özgə oğlana.

Belə məhəbbətə söylə nə deyim?
İstədin fikir edim, qəm-qüssə yeyim.
Bilmədim sən məni necə sevirdin,
Könlünü bəxş etdin özgə oğlana.

Uydun özgəsinə, sən məni atdın,
Eşqi, məhəbbəti şöhrətə satdın.

Bildin ki, işi var, Bakıda yaşar,
Könlünü bəxş etdin özgə oğlana.

Bildinmi mən necə sevirəm səni?
Məndən artıq bildin sən özgəsini.
Bilə-bilə qırdın mənim qəlbimi,
Könlünü bəxş etdin özgə oğlana.

İndi sənə necə eyləyim qarğış?
Unutdun, elə bil heç nə olmamış.
Xoşbəxt olmayasan ay yarımamış,
Könlünü bəxş etdin özgə oğlana.

Toylarda gələndə hərdən göz-gözə,
Lalətək qızartı çökərdi üzə.
Bəlkə də eşqimiz gəldi bəd gözə,
Könlünü bəxş etdin özgə oğlana.

Susmuşam, göz yaşım dönübdü selə,
Qızlar vəfasızmış, bilməzdim belə.
Xəyanət eylədin sən eşqimizə,
Könlünü bəxş etdin özgə oğlana.

Qüdrətəm, gətirdin məni dilə qız,
Adının üstündə yazdım vəfasız.
Aşiqinə necə qıydın, insafsız?
Könlünü bəxş etdin özgə oğlana.

***12.09.2004***

## MƏNİ YAD GÖZLƏRDƏN QORUYAN VARDI

Sevgiyə mən həsrət qalmışam demə,
Sənin də yolunu gözləyən vardı.
Xəyalın gözümdən çəkilmir demə,
Tanrı qismətini birinə yazdı.
Qovuşa bilməkçün sənin sevginə,
Elimi, obamı ataram demə.
Kiminsə yolunda övladlarını,
Yarımçıq buraxmaq özü də ardı.
Yadından çıxarma deyirəm sənə,
Məni də axtaran, arayan vardır.
Gözünü gəl tikmə sən gözlərimə,
Məni yad gözlərdən qoruyan vardı

***16.12.2000***

## QAYIT, GƏL GÜLÜM

Bağçada açılır, gülür gülbahar,
Çiçəklər açılır, gəlir növbahar.
Yenə geri dönür köçən durnalar,
Sən də məni düşün, qayıt, gəl gülüm.

Əriyib, sel olub dağdakı qarlar,
Su ilə dolubdu qurumuş arxlar.
Bu qədər gəl qoyma məni intizar,
Yadına sal məni, qayıt, gəl gülüm.

Yaşıl don geyinir çöldə ağaclar,
Torpaq da oyanır, cücərir otlar,
Düşün ki, yolunda gözü qalan var,
Yadına sal məni, qayıt, gəl gülüm.

Laləyə bürünüb yamyaşıl dağlar,
Bar ilə dolubdur meyvəli bağlar,
Yoluna göz tikib, qalmışam ağlar,
Yadına sal məni, qayıt, gəl gülüm.

Qumruyam, tükənib qəlbimdə sözüm,
Bir abu-leysantək yaş tökür gözüm,
Tükənib taqətim, qalmayıb dözüm,
Yadına sal məni, qayıt, gəl gülüm.

***25.01.2001***

## GƏL BARIŞAQ

Sən küsəndə yarım məndən,
Əl üzmərəm heç vaxt səndən.
Bir söz keçdi ürəyimdən,
Gəl sevgilim qucaqlaşaq,
Gəl bu gün də biz barışaq.

Bülbül kimi qoşa uçaq,
Gəl, birləşək, quraq ocaq,
Sünbül olub saçaq-saçaq.
Sevənlərə biz qarışaq,
Gəl bu gündə biz barışaq.

Qoşa yanan cüt şam olaq,
Mey süzülən bir cam olaq,
Hərdən coşan ilham olaq.
Gəl əl-ələ dağlar aşaq,
Gəl bu gün də biz barışaq.

Dönüb gözəl kəpənəyə,
Uçaq xoşbəxt gələcəyə,

Çatmaq üçün xoş diləyə.
Külək ilə bir yarışaq,
Gəl bu gün də biz barışaq.

Kəhkaşanda doğan Ay tək,
Bədirlənək, biz də gülək,
Göz vuraraq biz sayrışaq.
Səmalarda ulduz olaq,
Gəl bu gündə biz barışaq.

Mən Qüdrətəm, sevdim səni,
Sənə yazdım bu nəğməmi,
Gəl, yetişsin vüsal dəmi.
Ümman kimi aşaq-daşaq,
Gəl bu gün də biz barışaq.

***28.04.2005***

## QAYTAR EŞQİMİ

Verdim sənə ömrümü,
Verdim sənə kölnümü.
Ürəyim sənin olsun,
Qaytar mənim eşqimi.

Dediyim xoş sözləri,
İstəmirəm mən geri.
Xoş sözlər sənin olsun,
Qaytar mənim eşqimi.

Sənlə keçən günləri,
Gələcək ümüdləri.
Verdim, qoy sənin olsun,
Qaytar mənim eşqimi.

Anılar səndə qalsın,
Sevgimiz qəmlə solsun.
Sevincim sənin olsun,
Qaytar mənim eşqimi.

Hicran ayrılıq salsın,
Sevgimiz yetim qalsın.
Hər şeyim sənin olsun,
Qaytar mənim eşqimi.

***27.09.2000***

## NİYƏ BEZİRSƏN

Nə durmusan belə gendən, baxırsan,
Leylisən, Məcnunu oda yaxırsan,
Kababtək sən məni şişə taxırsan,
Naz edərək ürəyimi üzürsən.

Qara qaşlarını yenə çatırsan,
Siyah zülflərini dala atırsan,
Yenə mənə qəmzeyi-naz satırsan,
Naz edərək ürəyimi üzürsən.

Yenə sən süzərək qara gözünü,
Məndən gizlədirsən gözəl üzünü,
Deyirəm nə olar dinlə sözümü,
Naz edərək ürəyimi üzürsən.

Mənim ürəyimi eşqinlə çaldın,
Nazlanıb naz ilə canımı aldın,
Bəs niyə meylini əğyara saldın?
Gedib əğyar ilə sən nə gəzirsən?

Niyə şimşək kimi gurlayıb çaxdın,
Niyə məni qoyub əğyara baxdın?
Əğyarla gəzməklə qəlbimi sıxdın,
Qəlbimi sıxmısan, necə dözürsən?

Sən məni sevmişdin axı bir zaman,
Niyə bu sevgini çıxartdın yalan?
Bir gün olacaqsan yenə peşiman,
Axı bu sevgidən niyə bezirsən?

***15.06.2001***

## SÖYLƏ NƏ XALDI

Qaşların aypara, gözlərin xumar,
Gözlərim ilişib gözündə qaldı.
Saçların şəlalə, tellərin tumar,
Yanağa düzdüyün söylə, nə xaldı?!

Dilin badam içi, dodağın püstə,
Aşiqəm, meylimi qız sənə saldım.
Tellərin tökülüb qaşların üstə,
Yanağa düzdüyün söylə, nə xaldı?!

Üzündə təbəssüm, bənizin əsmər,
Yanağın lalədir, dodağın baldır.
Allahım qorusun, dəyməsin nəzər,
Yanağa düzdüyün söylə, nə xaldı?!

Güllü yaylığını salıb çiyninə,
Əyninə geydiyin tirmədi, şaldı.
Sərməni sərmisən mərmər sinənə,
Yanağa düzdüyün söylə, nə xaldı?!

Qumru gözəlliyə dözmədi inan,
Dəftəri götürüb qələmi çaldı.
Zöhrün ulduzutək alışıb-yanan,
Yanağa düzdüyün söylə, nə xaldı?!

***16.06.2001***

## QALA BİLMİRƏM

Nazlı dilbər mən sevənlər xasıyam,
Mən həsrətə, ayrılığa asiyəm.
Söyləmə mən sənə baş bəlasıyam,
Bəlkə sənsən mənə bəla, bilmirəm.

Mən sevdim ağ üzün, o nazik dəstin,
Mənimlə nə imiş bilmədim qəsdin.
Naz etdin, naz ilə səbrimi kəsdin,
Neyləyim, səbirli ola bilmirəm.

Görəndə ağ üzün xəyalım çaşdı,
Qəlbimi oxşayan o hilal qaşdı.
Eşqinlə ilhamım çağladı, daşdı,
Qələmi əlimə ala bilmirəm.

Mən eşqin sultanı, mən eşqin şahı,
Bir dəli ceyranam, bir dəli ahu.
Günahım olubdu sevmək günahı,
Meylimi özgəyə sala bilmirəm.

Gözlərim qalıbdı bal dodağında,
Əllərim gəzə kaş al yanağında.
Baş qoyam dizinə mən otağında,
Mən səndən aralı qala bilmirəm.

***14.06.2001***

## ÇATACAĞAM MƏN

Gözlərim tikilib yenə yollara,
Gedişinlə məni saldın odlara,
Mən səni sevmişəm ay gözü qara,
Bir gün vüsalıma çatacağam mən.

Sən məni həsrətlə yandırıb yaxsan,
Məni yanar qoyub əğyara baxsan,
Hərcayı çay olub yolundan çıxsan,
Sevgimi nifrətə satacağam mən.

İstərəm gözlərin baxsın gözümə,
Yenə qulaq asam şirin sözünə,
Bu gündən söz verdim özüm , özümə,
Qüssəni qəlbimdən atacağam mən.

Gəl sən hədiyyə ver vüsalı mənə,
Gəl həsrət qalmayım sevgilim sənə,
Əllərim çatanda yar əllərinə,
Sevgini sevgimə qatacağam mən.

Qoymaram ayrılıq üzümə gülsün,
Öz yarım gözümün yaşını silsin,
Deyirəm əğyar da qoy bunu bilsin,
Baş qoyub dizinə yatacağam mən.

Nə edim, mən aşiq olmuşam sənə,
Bu qədər naz-qəmzə eyləmə mənə,
Qüdrətəm, mən bunu deyirəm yenə,
Bir gün öz arzuma çatacağam mən.

***10.06.2001***

## GÜNAH EDİRSƏN

Niyə sən uzaqdan keçirsən yenə?
İncik baxışlarla baxırsan mənə,
Nədən incimisən gizlətmə genə.
Baxmayıb üzümə keçib gedirsən,
Nədəndir bu qədər günah edirsən?

De, hansı sözlərim dəyib qəlbinə?
Xəbərçi bəlkə söz gətirib sənə,
Yalan söz qəddini əyibdi yenə.
Uyub yalan sözə keçib gedirsən,
Nədəndi bu qədər günah edirsən?

Bu qədər inanma sən yalan sözə,
Yanmışam eşqinlə, dönmüşəm közə,
Bəlkə də eşqimiz gəlibdi gözə.
Su töküb közümə, keçib gedirsən,
Nədəndi bu qədər günah edirsən?

İnanma özgəyə, uyma əğyara,
Qəlbimdə ah dönüb olubdu yara,
De, ahı neyləyim mən bəxti qara?
Ürəyimi üzüb, keçib gedirsən,
Nədəndi bu qədər günah edirsən?

Dərdini gizlətmə, aç, mənə söylə,
Bir az gəl mürvətə, sən insaf eylə,
Sevən sevdiyini incitməz belə.
Qara gözün süzüb, keçib gedirsən,
Nədəndi bu qədər günah edirsən?

Dikmişəm gözünə ağlar gözümü,
Qurban eyləyirəm sənə özümü,

Dəyişmərəm sənə inan yüzünü.
Dodağını büzüb, keçib grdirsən,
Nədəndi bu qədər günah edirsən?

***26.06.2002***

## ARZUYA ÇATDIR MƏNİ

Mən onu sanmışam eşqin əzəli,
Söhbəti şirindir, sözü məzəli,
Gözləri görməyir özgə gözəli,
Cənnət pərisinə tay tutar məni.

Təbəssüm dolaşar gözəl üzündə,
Eşqin qığılcımı gəzir gözündə,
Məhəbbəti duydum şirin sözündə,
Eşqin atəşiylə yar çatar məni.

Gözləri tikilib gözümdə qalıb,
Eşqin atəşini qəlbimə salıb,
Əlimi əlinə yar yenə alıb,
Sevgisin sevgimə hey qatar mənim.

Mən onun eşqiylə qanad açmışam,
Şeyda bülbül kimi gülə uçmuşam,
Yarımın başına qızıl tacmışam,
Başıma qızılgül yar atar mənim.

Qüdrətəm, uğrumda keçər canından,
Hər nəyi istəsən yetirər o an,
Həyatını verər inan ki, qurban,
Arzuya, murada çatdırar məni.

***29.05.2002***

## SƏNİ SEVDİYİNDƏN AYIRDI FƏLƏK

Son dəfə gözlərin səmaya baxdı,
Göylərdən bir yanar ulduz da axdı,
Fələk heç sormadı vaxtdı, bevaxtdı,
Səni sevdiyindən ayırdı fələk.

Başını dizinə almışdı anan,
Göz yaşı tökürdü o yana-yana,
Fələk yaşamağa vermədi aman,
Səni sevdiyindən ayırdı fələk.

Dünyadan köç etdin cavan yaşında,
Sevdiyin boğulur göz yaşlarında,
Doymamış yarından, can yoldaşından,
Səni sevdiyindən ayırdı fələk.

Taleyin gülmədi, ey bəxti qara,
Düşdüyün dərdinə olmadı çara,
Bədbəxt sevdiyini qoyub biçarə,
Səni sevdiyindən ayırdı fələk.

Bİr körpə turactək yuvadan uçdun,
Nişanən bətnində dünyadan köçdün,
Ölüm şərbətini sən vaxtsız içdin,
Səni sevdiyindən ayırdı fələk.

Talehin sərt imiş, amansız imiş,
Yaşamaq istəyin gümansız imiş,
Fələk bir qatilmiş, bir qansız imiş,
Səni sevdiyindən ayırdı fələk.

Qüdrətəm, qarğaram zalımfələyi,
Çox cavan başına qurub kələyi,

Ürəyində qoyub arzu, diləyi,
Səni sevdiyindən ayırdı fələk.

*25.08.2002*

## HAYANDADI

Görüb yuxusunda o gözəl bir qız,
Deyir ki, sevirəm, mənimdir o qız,
Tapın o gözəli, qalmayım yalqız,
Məcnunun Leylisi gör hayandadır.

Qalxıb oyanıbdı, görüb yuxudu,
Qəlbinə saplanan eşqin oxudu,
Sevdiyi gözəl burada yoxuydu,
Məcnunun Leylisi gör hayandadır.

Aşiq olub, nə qanır, nə qandırır,
Eşqə düşüb o, Məcnunu andırır,
Eşq oduna şirin canın yandırır,
Məcnunun Leylisi gör hayandadır.

Bilmir kimi sevir, o necə sevir,
Mən aşiq olmuşam, əl aman deyir,
Əl qoyub özünə, o özün döyür,
Məcnunun Leylisi gör hayandadır.

Allahım rəhm etsin belə aşiqə,
Yuxuda meylini salıb məşuqə,
Siz gedin "Məğrib"ə ya da "Məşriq"ə.
Məcnunun Leylisi gör hayandadır.

Ya Rəbbim sən eşit dua-sananı,
Öz yarına yetir sevən cananı,

Müşkülə salma sən ata-ananı,
Məcnunun Leylisi gör hayandadır.

Qumru əfsanəni xəyalən duyub,
Düzübdü sözləri, nağıl uydurub,
Aşiq məşuqinə yuxuda uyub,
Məcnunun Leylisi gör hayandadır.

***06.05.2001***

## DÖNÜK SEVDALIM

Qədrini bilmədin sən bu sevdanın,
Sevənlər yanında çəkilməz adın,
Qoy səni yandırsın, yaxsın övladın,
Yandırdın sən məni dönük sevdalım.

Ah çəkdim, bu ahım qəlbini deşsin,
Mən düşdüyüm oda övladın düşsün,
Yansın eşq oduna, mənimtək bişsin,
Yandırdın sən məni dönük sevdalım.

Deyirsən sevirəm, yoxdur əməlin,
Dünyada hər şeydən üzülsün əlin,
Həsrətdən qar kimi ağarsın telin,
Yandırdın sən məni dönük sevdalım.

Evləndin özgəylə, sən məni atdın,
Alıb qucağına körpə oynatdın,
Müqəddəs sevgini özgəyə satdın,
Yandırdın sən məni dönük sevdalım.

***1999***

## NAKAM GEDİRƏM

Yenə də qələmi aldım əlimə,
Sevirəm kəlməsi yatmır dilimə,
Sevsəm də çatmadım mən öz gülümə,
Dünyadan, sevgidən nakam gedirəm.

Dünyanın işləri belədir, nədən?
Sevərək ayrıldım öz gülümdən mən,
Çıxara bilmirəm onu qəlbimdən,
Dünyadan, sevgidən nakam gedirəm.

Nə zaman mən gizli sevmişəm onu,
Şeirdə, qəzəldə gəzmişəm bunu,
Ömrüm tükənibdi, gəlibdi sonu,
Dünyadan, sevgidən nakam gedirəm.

Eşqidən yarımadım mən ki, əzəldən,
Artıq ümüd yoxdu, niyə dözüm mən?
Əlimi üzmüşəm mən bu gözəldən,
Dünyadan, sevgidən nakam gedirəm.

Yaşaya bilmərəm onsuz artıq bil,
Yanağına axan göz yaşını sil,
Ürəkdən sevməyim günahım deyil,
Dünyada sevgidən nakam gedirəm.

***06.10.2001***

## YANDIRACAQSAN

Payız rüzgarıtək xəfifcə əsdin,
Bir ahu ceyrantək yolumu kəsdin,
Bilmirəm nə imiş mənimlə qəsdin,
Sevgilim sən məni yandıracaqsan.

Boynunu burmağı bənövşə kimi,
Etmisən özünə bir peşə kimi,

Qəlbimə dolaraq bir nəşə kimi,
Sevgilim sən məni yandıracaqsan.

Süzgün baxışınla, xoş gülüşünlə,
Sən məni salmısan çarəsiz işə,
Asta yerişinlə, xoş gəlişinlə,
Sevgilim sən məni yandıracaqsan.

Gözünü süzəndə bir ceyran kimi,
Üzümə baxanda bir heyran kimi,
Hərdən inildəyən bir kaman kimi,
Sevgilim sən məni yandıracaqsan.

Dinməzcə baxanda bir xəyal kimi,
Göz yaşım tökülər, axar sel kimi,
Üzümə baxanda hərdan lal kimi,
Sevgilim sən məni yandıracaqsan.

Baxışın yar məni salır təşvişə,
Bilmirəm düşmüşəm mən necə işə,
Sonatək bəzənib, gəlib görüşə,
Sevgilim sən məni yandıracaqsan.

Sinənə basdığın telli saz ilə,
O şirin ləhcəli xoş avaz ilə,
Qumruyam, dediyin şirin söz ilə,
Sevgilim sən məni yandıracaqsan.

## NƏ ARZULAYIM?

Paklığına,gözəlliyə,özünə,
Ümman kimi coşan eşq dənizinə,
Haqdan gələn haqq deyilən sözünə,
Bilmirəm nə deyim,nə arzulayım?

İradənə,duruşuna,hökmünə,
Ruhdan gələn pak yaranan eşqinə,
Ülvüyyətə,səmimi görüşünə,
Bilmirəm nə deyim,nə arzulayım?

Eşq ilə alışan o gözlərinə,
Alışaraq yanan od gözlərinə,
Sevgiyə qarışan xoş sözlərinə,
Bilmirəm nə deyim,nə arzulayım?

Məhəbbət odunda yanan qəlbinə,
Xaliqtək yaradan,xaliqliyinə,
Vergitək verilən şairliyinə,
Bilmirəm nə deyim,nə arzulayım?

Qəlbində yurd salan duyğularına,
Gözündə nazlanan eşq xumarına,
Yarının xəlvəti göz tumarına,
Bilmirəm nə deyim,nə arzulayım?

Günəşdən nurlanan ziya nuruna,
Sevib-sevildiyin o mərd uğruna,
Poladtək əyilməz o qururuna,
Bilmirəm nə deyim,nə arzulayım?

***31.01.2001***

## GÜLƏ BİLMƏDİM

Elə bildim körpə ceyran övladım,
Bir ox atıb ürəyini oxladım.
Neçə il yanımda onu saxladım,
Ovumu mən tora sala bilmədim.

Gecə-gündüz hey dolandım başına,
Sığal çəkdim kipriyinə,qaşına,
Gəlib çatdı düz on yeddi yaşına,
Yanağından bir busədə almadım.

Çox sevsəm də mən bu körpə ahunu,
Satmadı o mənə heç matahını,
Necə alım mən onun günahını?
Oynayıb doyunca gülə bilmədim.

Neyləyim düşmüşəm qara sevdaya,
Canımı salmışam oda,bəlaya,
Bu imiş xoş gedən allahtalaya,
Onunla bir yerdə qala bilmədim.

Gəzirəm çölləri başı dumanlı,
Sevdiyim gözəllə olmuşam qanlı,
Ruhsuz bir bədənəm gəzsəm də canlı,
Üstümə gəlibmiş bəla bilmədim.

Qüdrətəm bu yazı alın yazımdır,
Sevdiyim özgə yox əmim qızıdır,
Əlimdə tutduğum sınıq sazımdır,
Dərdimi saz ilə çala bilmədim.

***09.07.2001***



# DÜNYA SƏNDƏN GİLEYİM YOX

## ATAMIN ÖYÜDLƏRİ

Söyləyibdi atam bizə,
Utanıb, qorxub, aldanma.
Gəlsən biriylə üz-üzə,
Sən özünü aciz sanma.

Bir haqsızlıq etsə sənə,
Qalmaginən yana-yana.
Tapdalanmış haqqını sən,
Çalış sübut eylə ona.

Bel bağlama sən özgəyə,
Heç bir kəsin haqqın yemə,
Kələk gəlmə bir kimsəyə,
Zəmanə mənimdi demə.

Sübut gətir, de sözünü,
Əldən vermə imanını.
Qoru hər an sən özünü,
İtirmə öz vicdanını.

Atanın bu öyüdləri,
Köməyimə çatdı yenə.
Qumruyam, əməl edirəm,
Həmişə atam deyənə.

***27.02.2005***

Mən kiminlə ovunam
Girənim yox qapımdan,
Öpənim yox alnımdan,
Xəbəri yox halımdan.
Ölübdü xanım anam,
Mən kiminlə ovunam?

Əlim ondan üzüldü,
Göz yaşlarım süzüldü,
Yanağıma düzüldü.
Ölübdü xanım anam,
Mən kiminlə ovunam?

Qəlbimin başı şan-şan,
Çadrası qaldı nişan,
Halım olubdu pərşan.
Ölübdü xanım anam,
Mən kiminlə ovunam?

Nə eyləyim bilmirəm,
Göz yaşımı silmirəm,
Bilməm niyə ölmürəm.
Ölübdü xanım anam,
Mən kiminlə ovunam?

Gecə-gündüz ağlaram,
Dəniz olub çağlaram,
Ona dastan bağlaram.
Ölübdü xanım anam,
Mən kiminlə ovunam?

Gözüm yaşla dolubdu,
Gül bənizim solubdu,

Xanım anam ölübdü.
Ta yoxdu xanım anam,
Mən kiminlə ovunam?

Qumruyam, yana-yana,
Çağırıram-ay ana!...
Qəlbim dönübdü qana.
Ölübdü xanım anam,
Mən kiminlə ovunam?

***20. 12. 2003***

## BALIMSAN MƏNİM

Həyat bağçasından dərmişəm səni,
Solub saralmayan gülümsən mənim.
Çimdirib yumusan tər bənövşəni,
Dağdan axıb gələn selimsən mənim.

Özümü "Xəmsə"nin gözəli bildim,
Leyliyəm, Məcnunum, dəlimsən mənim.
Qaçıb görüşünə mən gizli gəldim,
Nabatım, şəkərim, balımsan mənim.

Susmusan, danışır-dinir gözlərin,
Danışan dodağım, dilimsən mənim.
Səni incitməsin mənim sözlərim,
Həyata bağlayan telimsən mənim.

Sən havam-suyumsan duzum-çörəyim,
Geniş zəmilərim, çölümsən mənim.
Döyünən ürəyim, daim gərəyim,
Arxam-köməyimsən, elimsən mənim.

Neçə il gəzmişəm sənin tək inci,
Tapmışam, gövhərim-ləlimsən mənim.
Sevginlə sevindim qəlbim sevinci,
Dinmirsən, dilsizim, lalımsan mənim,
Şirinim, şəkərim, balımsan mənim.

*12. 2003*

## OĞLUMA TƏBRİK

Səni təbrik edirəm.
Məktəb qurtaran oğlan!
Allahdan diləyirəm ,
Alilik qazanasan.

Sən mənim kiçik oğlum,
Evimin körpəsisən.
Koroğlular övladı,
Nəbilər nəvəsisən.

Elə yol seç özünə,
El qəlbinə dolasan.
Vətəninə elinə,
Layiq övlad olasan.

Allah həmişə sənin,
İşinə uğur versin.
Vətənini sev ki sən,
Səni də elin sevsin .

Həyatda tut elə yol ,
Vətənə gərək ol sən.
İstərsən mühəndis ol ,
İstərsən alim ol sən.

Fərq eləməz əzizim,
Hər nə sənət qazansan .
Həyatında büdrəməz,
Doğru dürüst yol tutan.

***25. 05. 1999***

## TEZ GƏL VÜSAL

Yenə yağır eşikdə qar,
Buz bağlayır yenə sular.
Köçüb gedir yenə quşlar,
Sən də məni yadına sal.
Tez gəl Vüqar.

Göy üzünü bulud aldı,
Anan səni yada saldı.
Görən balam harda qaldı,
Sən də məni yadına sal,
Tez gəl Vüqar .

Gecə yuxumu qatmışam,
Tezdən yerimdən qalxmışam ,
Bilsən necə darıxmışam ...
Sən də məni yadına sal,
Tez gəl Vüqar.

Gəl bir təsəlli ver mənə,
Mane olmam inan sənə.
Qalammırsan qayıt yenə,
Ancaq məni yadına sal,
Tez gəl Vüqar.

## ÜMÜD OYANIR

Tarın qəm çalğısı kaman naləsi,
Vahidin  sözləri Qəndabın səsi.
Oyadır qəlbimdə yeni həvəsi,
Dəftər qələm ilə oluram həmdəm .

Yazıram yenə də qara taledən,
Yanağım islanır süzülən şehdən .
Lalətək titrəyib əsirəm mehdən,
Yenə keçən günlər eyləyir sitəm.

Oxuduqca Qəndab dalıb gedirəm,
Süzülür üzümə gözümdən şəbnəm.
O gözəl günləri düşünüb bu dəm ,
Qəmli günlərimə edirəm məlhəm .

Ürəyim çırpınır tar inlədikcə,
Kamanın naləsin mən dinlədikcə.
Qəndabın segahı cingildədikcə ,
Köksümü yandırır qovurur dərd qəm.

Bu səsin sehrindən qəlbim odlanır,
Sönmüş ocağımda odlar qalanır .
Yenə ürəyimdə ümid oyanır,
Xöşbəxt gələcəyə qoyuram qədəm.

***27. 01. 2003***

# QOYMA Kİ, DƏRD SƏNİ SINDIRSIN QARDAŞ

Nədir gözlərindən süzülən o yaş,
Dərdini gəl mənə aç söylə qardaş.
Ömrün qabaqdadır sən eylə savaş,
Qoyma ki,dərd səni sındırsın qardaş.

Özünü sanırsan bəxtsiz,talesiz,
Qəm-qüssə üzündə eyləyibdi iz,
San ki, bir səhrada qalmısan susuz,
Qoyma ki,dərd səni sındırsın qardaş.

Yenə düşünürsən xəyala dalıb,
Həsrət saçlarına bəyaz ağ salıb,
Övladların səndən aralı qalıb,
Qoyma ki,dərd səni sındırsın qardaş.

Övladünçün alışıb alovun,közün,
Onlarla başlayıb,qurtarır sözün,
Özünün yadından çıxmısan özün,
Qoyma ki,dərd səni sındırsın qardaş.

Unutma ki,gözəl bir gün gələcək,
Sənində üzünə iqbal güləcək,
Övladların sənin qədrin biləcək,
Qoyma ki,dərd səni sındırsın qardaş.

Qabaqdadır hələ yaşamalı gün,
Yolunu gözləyir sənin toy-düyün.
Oğluna toy eylə onunla öyün,
Qoyma ki,dərd səni sındırsın qardaş.

Səni başa düşər yəqinki,yarın,
Yükünü çəkirsən sən övladların.
Vaxt olar yeyərsən onların barın,
Qoyma ki,dərd səni sındırsın qardaş.

***03 .03. 2003.***

## EL ÜÇÜNDÜR

Əzizim el üçündür,
Gözəllik el üçündür.
Allah hər nə veribsə,
Xalqındır el üçündür.

Əziziyəm gizlətmə,
Talantını gizlətmə,
Səsini Allah verib,
Elin malın gislətmə.

Əziziyəm səsinə,
Avazına,səsinə,
Oxu elin dinləsin,
Heyran olsun səsinə.

Əziziyəm çal oxu,
Götür sazı çal oxu.
Var xoş səsin ,avazın,
Sən çəkinmə çal oxu.

***2001***

## BALA

Daim ucalıqdan gəlsin sorağın,
Görüm hər arzuna çatasan bala.
Sevincə bələnsin üzün yanağın,
Hər qəmi  kədəri atasan bala.

Ali yerdə olsun taxtın otağın,
Sevin bizləri də sevindir bala.
Xoş sözlər eşitsin daim  qulağın,
Gələcək xoş sözlər sənindi bala.

***06. 08. 1999***

## BU BOYDA OLSUN

***(nəvəmə)***

Gətirdin qələmi kağızı mənə,
Söylədin götür yaz mənə ay nənə.
Bilmirəm nə deyim axı mən sənə,
Deyirəm ki boyun bu boyda olsun.

Şirin sözlərinə heyran olmuşam,
Qara gözlərinə  heyran olmuşam.
Balamın özünə qurban olmuşam,
Deyirəm ki boyun bu boyda olsun .

Bilirəm dərrakən ağlın var sənin,
Çox şükür sənin tək oğlum var mənim.
Gələcək xoş günün uğrun var sənin,
Deyirəm ki boyun bu boyda olsun.

## OXŞAMALAR

Şükür Allah-Talaya,
Bələm şəkərdən şirin.
Tərif deyim balama,
Ağlı dəryadan dərin.

***

Görün necə oğuldu,
Balam qənddi noğuldu.
Gətirdi qələm dəftər,
Dərdim-sərim dağıldı.

***

Balam qızıl boğçası ,
Onun yeri taxçadı.
Çiçəklərin qönçəsi ,
Balam güllü bağçadı.

***

Balam çiçəklər şahı ,
Balam ətirşahıdı.
Qaradı gözü qaşı,
Nəvələrin başıdı.

***

Balam bülbül deyilki,
Balam bir simurq quşu.
Bədnəzərin pis gözün,
Başından getsin huşu.

***

Balam maral körpəsi,
Balam bir bala ceyran.
Onu görən hər kəsi,
Özünə edər heyran.

***

Sığal verib telinə,
Telləri qapqaradı.
Daraq alıb əlinə ,
Balam telin daradı.

***

Balam südün qaymağı ,
Balam inək kərəsi .
Batırar çox qulağı,
Gurlayanda “nərəsi”.

***

Balam bayram plovu,
Qoğal şəkər buradı ,
Hamıya müjdə olsun ,
Balam işə yaradı .

***

Balam mizin üstündə,
Yanar şamın şöləsi.
Hər səhər gül üstündə,
Çiçəklərin jaləsi.

***

Balam Göyçayın narı,
Balam Quba alması.
Uca dağların qarı,
Balam Bağdad xurması.

***

Lənkəran porağalı,
Bakıda qara şanı.

Maştağı şor qoğalı,
Ləzizdə tayı hanı.

***

Pürcüvarın qarpızı,
Şahbuzun şirin balı.
Naxçıvanın daş duzu,
Ordubad paxlavası.

***

Təbrizin gül xınası,
Cənubdan gələn mehdi.
Batabatın havası,
Laləyə düşən şehdi.

***

Balam qızıl düzməli,
İpək bəy xan xalatı,
Özü əzmə büzməli ,
Heyran edər elatı.

***

Balam güldü çiçəkdi,
Görüm onu solmasın .
Balam huri mələkdi,
Onu taysız olmasın.

***

Çox şükür Allah sənə,
Balam çox ağıllıdı.
Şeir yazıbdı nənə,
Bax bu da bir nağıldı.

***10. 03.2001***

## ƏHƏD

Nə olub görən belə,
Yenə bizim Əhədə.
Anasından küsərək,
Qaçıb durub təpədə.

***

Əhədə bax Əhədə,
Oturubdu təpədə.
Hərdən bir daş götürüb,
Tolazlayır həyətə.

***

Anası yalvararaq,
Belə deyir Əhədə.
Düş gəl a körpə bala,
Gedəcəyik şəhərə.

***

Əhəd çəkir çiynini,
Neynirəm ki şəhəri.
Mən küsmüşəm bibidən,
Mənə yazmır şeiri.

***

Bibisinə deyəndə,
Bibisi deyir belə.
Söz çatanda Əhədə,
Sözlər çıxdı qəhədə.

***12. 12 .1999***

## MƏHƏMMƏDİM

Məhəmmədim körpə,incə,
Dərs oxuyur gündüz,gecə.
Düşmən olub dördə,üçə,
Beş gətirir Məhəmmədim.

Anasına qulaq asır,
Paltarını özü açar,
Atasını qucaqlayar,
Beşin satar Məhəmmədim.

Bacısıyla hey savaşar,
Qardaşıyla hey dalaşar.
Üz verəndə həddin aşar,
Ərköyündür Məhəmmədim.

Məhəmmədin gözü qara,
Qazanacaq şöhrət,para.
Qismət olsun gözəl yara,
Toy eyləsin Məhəmmədim.

Məhəmmədin boyu uca,
Bir qız sevsin qrəyincə.
Sevilsin ömrü boyunca,
Xoşbəxt olsun Məhəmmədim.

Arzuları gəlməz sona,
Dua edər nənə,ana.
Toy eyləsin öz oğluna,
Öz atası Məhəmmədin.

***09.05.1999***

## MƏSUMƏ

Məsumə ay Məsumə,
Yaxın gəl sən bibinə.
Neçə şeir bilirsən,
Birini söylə mənə.

Məsumə ay Məsumə,
Heyranam gözlərinə.
Qulaq asıb sözünə,
Şeir yazıram sənə.

Məsumə ay Məsumə,
Sığal verib telinə.
O ağ paltarında sən,
Oxşayırsan gəlinə.

***09.10.1999***

## ÖNƏMSƏN BALA

Söz etmə ananın yeyib,içməyin,
Önəmsə səninçün candan keçməyin.
Səninçün xoşbətlik donu biçməyin,
Önəmsə,önəmsə.önəmsə bala.

Söz etmə ananın hər hərəkətin,
Atanın haqqını itirmək şətin.
Səninçün pak olan bu saf niyyətin,
Önəmsə,önəmsə.önəmsə bala.

Önəmsə ananı,həmdə atanı,
Övladçün toplayır varidatını,

Səninçün bəxş edər öz həyatını,
Önəmsə,önəmsə.önəmsə bala.

Atanın,ananın haqqın itirmə,
Onların haqqını özgəyə satma,
Əzizim sən oyan qəflətdə yatma,
Önəmsə,önəmsə.önəmsə bala.

Demə qabaqdadır yaşamaq,həyat,
Görərsən gələcək puç olub həyat,
Qurdala o yatmış vicdanı oyat,
Önəmsə,önəmsə.önəmsə bala.

***2002***

## NƏ QƏDƏR DARIIXDIM

Şəkildə seyr etdim gözəl üzünü,
Sıxmısan köksünə körpə qızını.
Deyirəm ürəkdən gələn sözümü,
Kaş uçub bu anda Bakıda olam,
Qolumu mən sənin boynuna salam,
Nə qədər darıxdım sənsiz ay balam.

Darıxdım səninçün,gözəl qızımçün,
Darıxdım nəvəmin şirin sözüçün.
Vüsalın,Nəsibin gözəl üzüçün,
Kaş uçub bu anda Bakıda olam,
Qolumu Əlinin boynuna salam,
Nə qədər darıxdım sənsiz ay balam.

İstərəm bu anda Bakıya gələm,
Sizinlə sevinəm,sizinlə güləm.

Qərib qardaşımı Fazili görəm,
Kaş uçub bu anda Bakıda olam,
Qolumu Fazilin boynuna salam,
Nə qədər darıxdım sənsiz ay balam.

Gözlərin üzümə tikilib budur,
Ürəyim çırpınır şiddətlə vurur.
Həsrətdən gözlərim yaş ilə dolur,
Kaş uçub bu anda Bakıda olam,
Yaxından Mətləbin salamın alam,
Nə qədər darıxdım sənsiz ay balam.

Bircə yol Vüsalla baş-başa verəm,
Qəlbimdən keçəni Gülləyə deyəm.
Əlini,Nəsibi,Səbuxi görəm,
Kaş uçub bu anda Bakıda olam,
Qolumu mən sənin boynuna salam,
Nə qədər darıxdım sənsiz ay balam.

Baxışın Güllünü yadıma salıb,
Səbuxun qoxusu burnuma dolub,
Fəridim,Aysunum bir yekə olub,
Kaş uçub bu anda Bakıda olam,
Körpə nəvələri qoynuma alam,
Nə qədər darıxdım sənsiz ay balam.

Ya rəbbim arzumu arzuya qatam,
Həsrətim silinə vüsala çatam,
Yığıb balaları başıma alam,
Kaş uçub bu anda Bakıda olam,
Ürəkdən sevinəm şad,xürrəm olam,
Nə qədər darıxdım sənsiz ay balam.

***05.06.2003***

## GOŞMUR ÜRƏYİM

Çağlamır ilhamım,coşmur ürəyim,
Söz-sözə calamır,qoşmur ürəyim,
Allahdan bu oldu arzu diləyim,
Yazdığım şeirlər çap olsun bəsdi.

Oxuya bilmədim cavanlığımda,
İndi mən neyləyim ahıl çağımda,
Köməyə çatmadı nalə,ahım da,
Neyləyim həyatım rüzgar tək əsdi,
Yazdığım şeirlər çap olsun bəsdi.

Çox da ki, çağlasın,coşsun ilhamım,
Qalxıb göy üzünə,yetişsin ahım,
Ucuz qiymətdə getmir matahım,
Bilmirəm bu məndə nücə həvəsdi,
Yazdığım şeirlər çap olsun bəsdi.

Vətəndən,anadan,eşqdən yazmışam,
Neçə dəftər dolub rəfə qoymuşam,
Şair olmamışam,nakam gəzmişəm,
Kasıblıq hər zaman yolumu kəsdi,
Yazdığım şeirlər çap olsun bəsdi.

***11.2003***

## PİSLİK EYLƏMƏ

Pislik pis adama qalıb həmişə,
Pisliyi özünə eyləmə peşə,
Əlindən gəlməsə xeyirxax bir iş,
İlan tək özünü çalar həmişə.

Çalış ki,yaxşılıq elə sən yaşa,
Pislik ilə adın qalmasın qoşa.
Büdrəyib düşənin əlindən yapış,
Yıxılsa əlini tez atma daşa.

Dünyada nə etsən qarşına çıxar,
Pisliyə heç zaman sən çıxma qahmar.
Sən rəvac versən bil ki,pisliyə,
Göz yaşına dönüb,üzündən axar.

Çalış ki dünyada yaxşılıq elə,
Adın çəkiləndə xoş gəlsin dilə,
Xalqın mərd oğlu tək yaşa dünyada,
Damla ol sən qarış gur axan selə.

Xalqınla bir olsan xalq səni sevər,
Adın çəkiləndə min əhsən deyər,
Qumruda hər zaman belə düşünüb.
Mərd tək yaşayana qardaşım deyər.

***07.11.2003***

## TALEYİN GÜLƏR ÜZÜNƏ

Bir cavan oğlansan sən gənc yaşında,
Bəyaz güllər açıb siyah saçında .
Həyat sərt üzünü göstərib sənə,
Nələr çəkməmisən sən bu yaşında .

Uzaq Rusiyada əsgər idin sən,
Köməyə çağırdı səni bu Vətən.
Ay Habil sən bircə bununla öyün,
Qayıtdın Vətənə kömək üçün sən.

Hələ olmasada arzuların çin,
Qızıl qan tökmüsən Vətənçün Elçin.
30 yaşındasan subay gəzirsən,
Bir soruşan yoxdu səbəbin neyçin.

Gəzirsən canında bir neçə qəlpə,
Doymusan sən cana gəlmisən bəlkə.
Tale köçkün adı veribdi sənə,
Qoy köçkün kəlməsi dəyməsin sənə.

Dadmısan həyatın acı adını,
Gəl mənə aç söylə öz həyatını.
Yəqin öz elatın düşüb yadına,
Bir qurdala görək öz yaddaşını.

Çoxda fikir edib çatma qaşını,
Axıtma içinə gözün yaşını,
Vaxt gələr taleyin üzünə gülər,
Taparsan həyatda can yoldaşını.

Qumruyam sən inan mənim sözümə,
Xoş həyat qurarsan özün-özünə.
Bir gözəl qız olar anan gəlini,
İnşallah talehin gülər üzünə.

***10.2003***

## YUVAM OLUB BOŞ

Əlimdə qələmim gözlərimdə yaş,
Düyünlənib alnım çatılıbdı qaş.
İndi qanad alıb uça biləm kaş,
Yığılıb Bakıda alaçıq qurmuş,
Gəlmir balalarım yuvam qalıb boş.

Nə yeyirlər,nə içirlər bilmirəm,
Bir əziz tikəmi yarı bölmürəm,
Onlarla sevinib deyib,gülmürəm,
Yenə gilələnib gözlərimdə yaş.
Dönmür balalarım yuvam qalıb boş.

Bu necə yaşamaq,bu necə gərdiş,
Ürəyim titrəyir əlim tutmur iş.
Etmişəm həsrətə mən bəlkə vərdiş,
Yollara baxmaqdan gözüm yorulmuş,
Dönmür balalarım yuvam qalıb boş.

Yenə çırpınıram sanki qəfəsdə,
Gözlərim yol çəkir qulağım səsdə,
Həsrətdən yorulub olmuşam xəstə,
Yenə həsrətləri qəlbimə dolmuş,
Gəlmir övladlarım yuvam qalılb boş.

Qırıb zəncirləri qəfəsdən uçam,
Həsrətin köksünə bir xəncər sancam.
Sıxıb övladları köksümə qucam,
Ollar pərvazlanıb yuvamdan uçmuş,
Dönmür balalarım yuvam qalıb boş.

Kasıblıq sədd çəkib yuvama mənim,
Yoxluq qandal vurub qoluma mənim,

Həsrət bəyaz salıb telimə mənim,
Gör necə ağrıyır dumanlanıb çaş,
Gəlmir övladlarım yuvam qalılb boş.

Nə söyləyim mən nə yazım bilmirəm,
Ağlayıram göz yaşımı silmirəm,
Söyləməyin qəribliyib neyləyim,
Olmuşam evimdə mən qərib bir quş,
Dönmür balalarım yuvam qalıb boş.

Diz çöküb,əl açıb üz tutdum sənə,
Rəhm eylə Allahım,rəhm eylə mənə.
Dönsün övladlarım evimə yenə,
Toy edib,tos deyib söyləyim bir tuş,
Gəlsin övladlarım qəlbim olsun xoş.

***14.01 2004***

## TƏZƏ İLHAM VERDİ MƏNƏ

Qar yağırdı səhər-səhər,
Evdən çıxdım mən bir təhər.
Qəlbdən getdi qüssə,kədər,
Bu yağan qar,əsən külək,
Təzə ilham verdi mənə,
Yenə dindi susan ürək,
Bax ilhamım coşdu yenə.

Qar yağırdı lopa-lopa,
Tələsirdi yerə hopa.
Ağaclarda topa-topa,
Qar gülü tək açıb çiçək,
Ağ qar ilham verdi mənə,

Yanağımdan öpdü külək,
Bax ilhamım coşdu yenə.

Hərdən günəş qızarırdı,
Qardan gözüm yaşarırdı,
Dolan bulud boşalırdı,
Qar yağırdı ələk-ələk,
Görünürdü gözəl,göyçək,
Dolan bulud,çıxan günəş,
Yeni ilham verdi mənə,
İlham qalxdı gərnəşərək,
Bax yenidən coşdu yenə.

İlhamım qalxıb oyandı,
Qəlbimdə bir işıq yandı.
Sevindim üzüm nurlandı,
Qarı gördüm ləçək-ləçək,
Təzə ilham verdi mənə,
Qara baxıb sevinərək,
Bax ilhamım coşdu yenə.

Təbiətdən ilham aldım,
Dəftər aldım,qələm çaldım,
Ağ vərəqə sətir saldım,
Bax danışdı dindi ürək,
Təzə ilham gəldi mənə,
Qara tərif söyləyərək,
Bax ilhamım coşdu yenə.

***28.01.2003***

## MÖVZUM YOX

Deyirsən yazmırsan neçə vaxtdır sən,
Mövzum yox bilmirəm  mən yazım nədən.
Nədən sevinirəm küsürəm kimdən,
Oyana beynimdə fikirlər yenə,
Düzülə varağa sətirlər yenə.

Dəftər qarşımdadı əlimdə qələm,
Fikrimi eyləyə bilməyirəm cəm.
Təbim də oyanmır beynimdə bu dəm ,
Oyana beynimdə fikirlər yenə,
Düzülə varağa sətirlər yenə.

Gərək ki kimsəylə danışam güləm,
Deyən sən bülbülsən mən qızılgüləm.
Məni kimsə sevir mən gərək bilim,
Oyana beynimdə fikirlər yenə ,
Düzülə varağa sətirlər yenə.

Gərək ya sızlaya inciyə qəlbim,
Sevdiyim gözəldən üzülə əlim.
Ya da ki sevincdən tutula dilim,
Oyana beynimdə fikirlər yenə,
Düzülə varağa sətirlər yenə.

Həsrətdən başıma yağa gərək qar,
Qəlbimi yandıra bir vəfasız yar.
Bu dünya başıma gərək ola dar,
Oyana beynimdə fikirlər yenə,
Düzülə varağa sətirlər yenə.

Kaş yenə anamla olaydım sirdaş,
Girə anam  ilə qapımdan qardaş.
Sevincən gözümdə giləlÉ™nə yaş,
Oyana beynimdə fikirlər yenə ,
Düzülə varağa sətirlər yenə.

***12. 2003***

## KÖMƏYİN OLSUN

Nəsib mənim çiçəyimsən gülümsən,
Təzə-tər açılan güllərin olsun .
Ağzımdakı şirin-şirin dilimsən,
Bal kimi şipşirin diləyin olsun.

Axan dağ çayımsan coşan selimsən,
Aydınlıq gətirən sellərin olsun .
Sən alnımda sığarlanan telimsən,
Yanında sığallı bir gəlin olsun.

Sən arxamsan köməyimsən elimsən ,
Elin gözək qızı qismətin olsun.
Atanın ananın sən köməyisən,
İlahi  həmişə köməyin olsun.

***16. 12.1998***

## CAHİLLİK EYLƏDİN

Səni böyütməkçün çəkdim çox zillət,
Əyildim çox yerdə,çəkdim çox minnət,
Ancaq ki,mən səndən görmədim hörmət,
Nə imiş günahım mənim ay oğul?

Üzümə baxmadın,düydün qaşını,
Çevirdin üzünü əydin başını.
Saxlaya bilmədim gözüm yaşını,
Nə imiş günahım mənim ay oğul?

Halımı sormadın durdun qarşımda,
Məni dindirmədin ahıl yaşımda,
Bir sual dolanır mənim başımda,
Nə imiş günahım mənim ay oğul?

Sən mənim qəlbimi eylədin talan,
Arzum ürəyimdə olubdu viran.
Qorusun xətadan səni yaradan,
Nə imiş günahım mənim ay oğul?

Qumruyam tanrıdan lüft diləyirəm,
Bütün günahları əhv eyləyirəm,
Üz tutub mən sənə bunu deyirəm-
Nə imiş günahım mənim ay oğul?

## MƏNİM ŞAİR QARDAŞIM

Söz verdin gələcəyəm,
Söz vermişdin sən mənə.
Niyə gəlib çıxmadın?
Vəfa yoxmu əhdinə?

Ocağımın üstündə,
Soyudu aşım mənim.
Niyə gəlib çıxmadın?
Şair qardaşım mənim.

Yerə saldın sözümü,
Yolda qoydun gözümü,

Deyim sözün düzünü,
Danladılar üzümü.

Gözlərimdən üzümə,
Axıtdım gözüm yaşın.
Niyə gəlib çıxmadın?
Şair qardaşım mənim.

Gözüm yollarda qaldı,
Qəlbimi kədər aldı.
Mənə gəc nəzər saldı,
Mənim həyat yoldaşım.

Yenədə yaz buludu,
Gözlərimə dolubdu.
Yenədə telli sazım,
Kövrək kaman olubdu.

Yenədə dumanlanıb,
Ağrıyır mənim başım.
Niyə gəlib çıxmadın?
Şair qardaşım mənim.

Göz yaşım gilə-gilə,
Mizrabı vurdum telə.
Qumruyam gəldim dilə,
Səndən cavab istərəm.
Silərək gözüm yaşın,
Niyə gəlib çıxmadın?
Şair qardaşım mənim.

***21.11.2004***

## DOSTLUQ

Elə ki insanlar varlanar bir az,
Ta köhnə dosları tanımaz,saymaz.
Nə qədər vəfalı olsa köhnə dost,
O köhnə dostları yadına salmaz.

İnsan varlananda gözləri görməz,
Baçına yığılar çoxları inan.
Köhnənin yerini heç biri verməz,
Özünü qoru sən bu yaltaqlardan.

Bir gün əyağına əgər dəysə daş,
Yaltaqlardan sənə olarmı sirdaş.
Necə yığılıblar başına sənin,
Elə əkilərlər bil yavaş-yavaş.

Bunu göstəribdi həmişə zaman,
Heç kəsə dost olmaz yaltaqdan inan.
Ayağın bedrəsə sənin azacıq,
Hazırdı o səni vurar arxadan.

Varlı da kasıb da olduğun zaman,
Köhnə doslarındı səninçün yanan.
Bir söylə dar gündə qoyub qaçarmı,
Dosluğu hər şeydən müqəddəs sayan.

Sən bunu yadından çıxarma heç vaxt,
Yıxılsan dosların səni qaldırar.
Xəbislər dayanıb həmişə xəlvət,
Yıxılsan baltanı kökünə vurar.

***14.04.1999***

## ALLAHIN ƏMRİNİ İCRA EDİRƏM

İlahi hərəyə bir həyat verib,
Mənədə bəxş edib bu ömrümü pay.
Qəlbindən keçəni buyur yaz deyib,
Özünü elinə tanıt sal haray.

Allahım şairə yaradıb məni,
Mən icra edirəm Allah əmrini.
Yazmasam yandırar sözlər sinəmi,
Mənə ilham verir Şəms ilə Humay.

Fikrim qanad açıb uçur hər yana,
Dolanır dağları dönür arana.
Mən tərif deyirəm gülə,ceyrana.
İlhamım çağlayıb olur daşan çay.

Sevən aşiqləri mədh eyləyirəm,
Bütün sevənlərlə oluram həmdəm.
Şeirim olarsa qəlblərə məlhəm,
Özümü loğmana mən tuturam tay.

Səmanı dolanır gözlərim gəzir,
Kəhkəsan ummandır,ulduzlar üzür,
Qələmim varağa sözləri düzür,
Sözdən kərpic kəsib qururam saray.

***08.03.2005***

# İLHAMINA ALQIŞ

İlk kitabım çıxıb mənim,
Bacın şair olub sənin.
Qövr eyləyib o ürəyin,
İlhamına alqış-alqış,
Allah bahar ömrümüzə,
Yağdırmasın nə qar ,yağış.

Körpə bacım coşdun yenə,
Şirin nəğmə qoşdun mənə,
Söyləyirəm dönə-dönə,
İlhamına min-min alqış,
Allah bahar ömrümüzə,
Yağdırmasın nə qar ,yağış.

Orta yaşa gəlib yetdin,
Qırx yaşını tamam etdin.
Məndə səni təbrik edim,
İlhamına deyim alqış,
Allah bahar ömrümüzə,
Yağdırmasın nə qar ,yağış.

Qumru dilər o Xudadan,
Qoy qorusun şər,xatadan.
Hər arzuna sən çatasan,
İlhamına alğış-alqış,
Allah bahar ömrümüzə,
Yağdırmasın nə qar ,yağış.

***28.03 2005***

# ANA QEYRƏTİ

Sən bizə öyrətdin mərd yaşamağı,
Həyatda ləkəsiz ad daşımağı,
Bir ömrü namusla başa vurmağı,
Ay ana tövsüyyə eylədin bizə.

Səhv addım atanda danladın bizi,
Ana yox,bacı tək anladın bizi,
Sevib əzizlədin hər birimizi,
Ayrı fərq qoymadın heç birimizə.

Yayda da,qışda da oyandın sübhdən,
Qorxmadın istidən,qırovdan ,şehdən,
İstifadə etdin əsəndə mehdən,
Buğdanı ələtdin,əfsətdin bizi.

Dedin il euzusun əfsəyək,yuyaq,
Üyüdüb un edib ehtiyat qoyaq.
Gecəni sübhətək qalsaq da oyaq,
Bir gecə yatmasaq nə olar bizə.

Bizi oyadardın tezdən o başdan,
Deyərdin qorxmayın qardan,yağışdan.
Qeyrətli çörəyi çıxarar daşdan,
Ruh verib mərdliyi öyrətdin bizə.

Həyatda sən bizi məğrur böyütdün,
Unutmarıq ana sənin öyüdünü,
Sənsizlik yer etdi,ürək döyündü,
Yoxluğun ay ana ağırdı bizə.

***13.03.2005***

## TƏNHA BÜLBÜL

Bahar çağı yağıbdı qar,
Dünya sənə olubdu dar.
Axtarırsan sevgili yar,
Tapammırsan bir gül,çiçək.

Üşüdübdü boran səni,
Eşitmirəm xoş nəğməni.
Axtarırsan göy çəməni,
Qar üstündə qalmısan tək.

Səni soyuq qorxutmasın,
Oxu səsin qoy batmasın.
Qış arzuya qoy çatmasın,
Bir sən nəğmə söylə görək.

Tapılacaq çarə bülbül,
Gülü vermə xara bülbül.
Nəğmə oxu yara bülbül,
Bir cəh-cəh vur coşsun ürək.

Qumru sənə nəğmə qoşsun,
İlham gəlsin ürək coşsun.
Sevincimiz aşsın,daşsın,
Elimizlə deyək,gülək.

***23.03.2000***

## SAĞ OL ELOĞLU

Sözlərimə verdin çox uca qiymət,
Bəsləyirəm sənə hörmət,məhəbbət.
Məni heyran etdi səndəki qeyrət,
Əhsən söyləyirəm sənə eloğlu.

Eşit mən söyləyim sözün düzünü,
Sınayıb gəlmişdim inan yüzünü,
Sən ki əzizlədin elin qızını,
Əhsən söyləyirəm sənə eloğlu.

Sənin duyğuların zərif,kövrəkdi,
Sinəndə döyünən,duyan ürəkdi.
Qumeuyam qəlbimdən qopan ürəkdi,
Əhsən söyləyirəm sənə eloğlu.

***29.03.2005***

## HİSSİNİ SƏNƏTƏ SƏN QURBAN ETDİN

***( Müğənni Nisə Qasımovaya)***

Hələ gənc yaşından müğənni olub,
Sən nəğmə olaraq qəlblərə doldun.
Qönçeydin səhnədə açıb gül oldun,
Ğzündə bilmədən bu yaşa yetdin,
Hissini sənətə sən qurban etdin.

Səhnədə pəriydin yada bir sona,
Səsini sevənlər gəldilər cana,
Ömrü xalqa verdin olmadın ana,
Analıq adından imtina etdin,
Hissini sənətə sən qurban etdin.

Xalqa qulluq erdin candan,ürəkdən,
Əl çəkdin sevgidən,arzu diləkdən.
Gileyli olmadın bəxdən,fələkdən,
Ömrünü xalqına sən də həsr etdin,
Hissini sənətə sən qurban etdin.

"İndi yaşıdlarım olublar nənə"
Deyərək kövrəlib bacım qəm yemə.
Xalqının sevgisi bəs edər sənə,
İnan,əl çatmaz zirvəyə yetdin,
Hissini sənətə sən qurban etdin.

Bunları çıxarma bacım yadından,
Çoxu dərs götürsün sən tək qadından.
Təşəkkür edirəm xalqın adından,
Sənətdə ölməzlik gülüylə bitdin,
Hissini sənətə sən qurban etdin.

Mahnıya özünün möhrünü vurdun,
"Azəri qızıyam" deyib oxudun.
Azəri torpağı sənin öz yurdun,
Nisə sən Vətəndə şöhrətə çatdın,
Hissini sənətə sən qurban etdin.

***04.04.2005***

## RAHAT UYUYAR

Yalan,böhtan deyər vicdanə yoxdur,
Qoyma ki əzsinlər,sıxsınlar səni.
Alçaq söz söyləyər alçaq olanlar,
Vecinə alma sən hər deyiləni.

Hər üzə gülənə uyma,inanma,
Bil ki, bu dünyanın oyunu vardır.

Çox tez-tez pisliyi düşünmə,anma,
Bil ki,pisliyin də bir sonu vardır.

Demə ki,bağlandım kiməsə bu gün,
Ümüdü saxla sən sabahın üçün.
Çün ki,aralıqda uzun gecə var,
Səhərə doğacaq işıqlı bir gün.

Hər üzə gülənə vəfalı demə,
Sözünün üstündə duran az olar.
Mən də duyduğumu yazıram yenə,
Bəzən utancaq da,utanmaz olar.

Alın yazısını heç vaxt unutma,
Yenidən sevilmək.sevmək də olar.
Allah yetirəni götürüb,atma,
Həyat da yenidən evlənmək olar.

Özünə ömür-gün yoldaşı seç sən,
Bilsinlər sənidə bir sevən vardır.
Dosların arxayın olsunlar səndən,
Bilsinlər sənində ailən vardır.

Demə ki,kimsələr məni qınayar,
Deyənlər qəlbindən sevgini atdı.
İnan ki sevdiyin rahat uyuyar,
Rahat yaşayarsa bir cüt övladı.

***12.12.1998***

# İZİM QALACAQ

Bir gün sual etdi mənə bir körpə,
Həyatda nə qalar bəs hamı ölsə?
Qulağımda qalan bu incə səsə,
Deyirəm dünyada dözüm qalacaq.

Hər kəsi yaradıb bizi yaradan,
Çoxları köç etdi bu gen dünyadan.
Mən köç eyləsəm bir gün dünyadan,
Sözüm,oğlanlarım,qızım qalacaq.

Dünyada qocalıb nənə olsam da,
Saçlarım ağarıb yaşa dolsam da,
Həyatdan nə qədər razı qalsam da,
Sənətdə həmişə gözüm qalacaq.

Savadsızlıq ömrə bir kölgə saldı,
Oxumaq istəyim qəlbimdə qaldı,
Bu hissi ömrümü atəşə saldı,
Yansam da külüm yox közüm qalacaq.

A körpə deyirəm bunu bil ki,sən,
Hərdən utanıram özüm-özümdən.
Bir gün bu dünyada olmasam da mən,
Ürəyimdən gələn sözüm qalacaq.

Alışaraq yandım hər zaman gizli,
Yenədə göz yaşım yanağa süzdü,
Qüdrətəm deməyin həyatdan bezdi,
Həyatda əbədi izim qalacaq.

***22.06.2001***

## GÜL YENƏ

Gül yenə dərd-qəmi çalış az eylə,
Danış ki,xoş sözün yayılsın elə.
Üzündə təbəssüm gəzsin naz ilə,
Qönçə dodaqların gül tək açılsın.

Eşidib xoş səsin,sevinsin doslar,
Düşmənin bağrını qoy dəlsin ahlar.
Gül yenə ömrünə gəlsin ilk bahar,
Gülümsər gözündən kədər,qəm qaçsın.

Gül sənin gülüşün incədən,incə,
Yorulmaq bilməsək nə gündüz,gecə.
Yarımçıq işini bitir sevinclə,
O günəş üzündən şəfəq saçılsın.

Danış ki,dinləsin ellər sözünü,
Allahım qorusun sənin özünü,
Hər yerdə sən söylə sözün düzünü,
Həmişə haq səsin qalxıb ucalsın.

Qüdrətəm mən sənə dilərəm düz yol,
Allahdan sevinci istərəm bol-bol.
Tutduğun işində daima var ol,
Gül ki,gülüşünlə düşmən qocalsın.

***04.05.2002***

## BƏLKƏ OZANAM

Coşuram şair tək şeir yazıram,
Özüm yazdığımə ı özümyozuram.
Bəlkə şair deyil mən bir ozanam,
Sorurlar nəçisən savadın varmı?

Göz yaşımı gizlədib,gülümsəyirəm,
Bilmirəm mən hansı cavabı deyəm.
Qoy bilsin sualla qəlbimə dəyən,
İlhamı olmayan şeir yazarmı?

Gəzib dolanıram mən aram-aram,
Bilməzlər həyatda bir məndə varam.
Götürüb qələmi gülşən qururam,
Savadsız olmağım mənimçün armı?

Şeyda bülbül kimi şən oxuyuram,
Bal arısı kimi şan toxuyuram.
Göstərrəm həyatda bax məndə varam,
Bu dünya savadsız başına darmı?

Mən kasıb olmuşam oxumamışam,
Bilməki fağıram,mən qəlbi daşam,
Coşaram Araztək bəndi aşaram,
Savadsız olmağım ellərə carmı?

Yazaram Vətənin şirinliyindən,
Anamdan,balamdan,qərinələrdən,
Yazaram sevginin dərinliyindən.
Məni şair edən anadı,yardı.

İlhamım çağlayar coşaram qəlbdən,
Yaz selləri kimi çıxaram bənddən,

Qüdrətəm yazaram,yaradaram mən,
Həmid Arzulu tək ustadım vardı,

*14.04.2002*

## DÜNYA SƏNDƏN GİLEYİM YOX

Dünya səndə çoxdu kələk,
Bir üzü bəd,biri mələk.
Dərdə düşüb dözmür ürək,
Dünya səndən gileyim yox.

Mən bir gözəl yar sevsəmdə,
Gah ağlayıb,gah gülsəmdə,
Səni sehrikah bilsəmdə,
Dünya səndən gileyim yox.

Güllər solub boran,qardan,
Bülbül qaçaq olub xardan.
Ayrılsamda gözəl yardan,
Dünya səndən gileyim yox.

Həsrətinə dözmür ürək,
Qəlbim olub ələk-vələk,
Ayrılığı salıb fələk,
Dünya səndən gileyim yox.

Ürəyimi qəmə verdim,
Sevincim az çoxdu dərdim.
Çox dərdlərə sinə gərdim.
Dünya səndən gileyim yox.

Göz yaşım süzülür üzə,
Bağrım başı dönüb közə,

Gileyliyəm ağlar gözdən,
Dünya səndən gileyim yox.

Aman verib mənə xuda,
Yarı görmüşəm yuxuda,
Odur deyirəm nam xuda,
Dünya səndən gileyim yox.

*03.08.2002*

## QIZLAR

Üz tuturam gözəl qızlar mən sizə,
Yupkanı qaldırıb qoymayın dizə.
Gözünüz gözəldir ahu ceyran tək,
Yeddi rəng vurmayın o ala gözə.

Vətəninizdi sizin Azərbaycan,
Millətin azəri özün müsəlman.
Modanız seçilmir rusdan,almandan,
Silin təmizləyin ala gözləri.

Saçınız andırır göy qurşağını,
Bunlar oğlanları gətirir cana,
Anada tanımır öz üşağını,
Nə türkə bənzərsiz,nədə almana.

Əynində şalvarın ayağı tüldən,
Qoftan yuxarıdı bir qarış beldən.
Niyə seçilirsən axı bu eldən,
Yaddan çıxarmısan Azərisən sən.

Siz moda dalınca düşüb qaçmayın,
Əndamın gözəlsə yaraşacaq bez,

Modaya uyaraq sinə açmayın,
Gözəl görünərsiz milli geysəniz.

Dağ selləri kimi çağlayıb,daşın,
Ağaraq dəryaya gölə dolun siz.
Öz xalqına layiq ömür yaşayın,
Sadə dolananda gözəl olur qız.

Sizsiniz dünyanın sonası qızlar,
Sevən bir oğlana qismət olun siz,
Sizlər gələcəyin anası qızlar,
Dilərəm allahdan xoşbəxt olun siz.

***02.10.2001***

## DEYƏK MÜBARƏK

Oğlumun qisməti bir incə çiçək,
Qüdrətdən yaranmış bu körpə mələk.
Gəlin həm şirindi,həm gözəl göyçək,
Bizdə bu gənclərə xoş gün diləyək,
Hamımız birlikdə deyək mübarək.

Balamın qisməti qonşunun qızı,
Lalədən gözəldi yanağı,üzü.
Baldanda şirindi söhbəti sözü,
Gəlin əziz doslar,sevinək,gülək,
Hamımız birlikdə deyək mübarək.

İlahi qismətin yazıbdır bizə,
Allahım qorusun gəlməsin gözə,
Yaşasın oğlumla çatsınlar yüzə,
Gəlin özümüzə bunu borc bilək,
Hamımız birlikdə deyək mübarək.

Yetirib oğluma bunu tanrısı,
Tapılıb balamın yarı,yarısı,
Vüsalla birlikdə bu qız yarısın,
Qumru,İlahiyə min şükür deyək,
Hamımız birlikdə deyək mübarək.

## GƏLİŞİN BƏZƏSİN MƏNİM ÖMRÜMÜ

Köksümün altında çırpınan ürək,
Çırpınır yenədə divanələr tək.
Yenə nigaranam səndən ay bara,
Bir xəbər yollaki,sevinək,gülək.

Gəl əziz övladım,evin zinəsi,
Sən allah payısan tanrı neməti,
Yenə yollarına tikilib gözüm,
Gəl bitsin qəlbimin övlad həsrəti.

Sənin həsrətindən mən gəldim dilə,
Gəl yanar qəlbimə sərin su çilə.
Gəl gözüm yollardan yığılsın bala,
Həsrətə son qoyum mən gülə-gülə

***23.12.2001***

## GƏNC QIZIN TALEYİ

Yenədə almışam əlimə qələm,
Bir gözəl gənc qızın həyatın verəm,
Göz açdı dünyaya bir gözəl pəri,
Şən gülüş bürüdü bütün hər yeri.
Boyüdü boy atdı bu körpə Fidan,

İlk zərbəni aldı öz həyatından.
Qəlbində ilk eşqi açmamış çiçək,
Ovçunun toruna düşdü o mələk.
Bil bala ceyrandı,gözləri qara,
Düşdü bir oyuna yazıq biçarə,
Ovçu bu ceyranı qəfil oxladı,
Bu ceyran eşqini pünhan saxladı,
Söylədi bu ovçu çox gözəl sözlər,
Xoş sözə inanar sadəlöv qızlar.
Bu qızda inandı sözünə onun,
Ovçu xoş göründü gözünə onun.
Qoşulub bu geyran ovçuya qaçdı,
Gələcək xoş günə o qucaq açdı.
Yaşadı bir müddət o şad firavan.
Bu qızın işləri gedirdi rəvan.
Bu təzə həyata qız alışırdı,
Ovçunu sevməyə o çalışırdı.
Sakit ömür sürüb yaşayırdı o,
İlk eşqi qəlbində daşıyırdi o.
Ovçuda ceyranı istəyirdi çox,
Arada söz,söhbət heç bir nifaq yox.
Həyatı keçirdi sakit,aramla,
Ceyran qarşılaşır yeni dramla.
İnsandan fələyin üzü dönməsin,
Yanar ocaqların,odu sönməsin.
Bir anda dəyişdi üzü fələyin,
Qarışdı işləri gözəl mələyin.
Tutdu yaxasından xəstəlik onun,
Həyatdan əlləri üzüldü bunun.
Gözlərini açdı xəstəxanada,
Ovçunu axtardı gözü o anda.
Qızdırma içində yanır o ceyran,
Gözləri qapıya tikilir hər an.

Gözləyir yolunu ceyran ovçunun,
Gəlib bir halını soruşa onun.
Çarpışır bu ceyran burda ölümlə,
Həyatı qalıbdı ölüm,dirimlə.
Gözləyir yolunu hər axşam,səhər.
Günü başa vurur yenə bir təhər.
Gözləyir həsrətlə ovçu gəlməyir,
Ölüm yatağında tərin silməyir.
Beləcə bu ceyran salsılır yenə,
Neylədim o yaxın gəlməyir mənə.
Deyərək düşünür gözləri dolur.
Qəlbini qəm alır o məyus olur.
Çox sorğu suala tutur özünü,
Ovçuya deyəmmir ürək sözünü.
Düşübdü canına ovçunun qorxu,
Qəlbini alıbdı xəstəlik xofu.
Ovçu baş açmayır allah sirrindən,
Qorxur ki dərd ona bulaşar birdən.
Allahın işindən baş açmaz fələk,
Bu qızın axırı nə oldu görək.
Ceyran xəstə yatdı burda neçə ay,
Ovçu göndərmədi o ceyrana pay.
Ceyran pay ummayır,umurdu sevgi,
Sevgiyə möhtacdı bu qızın qəlbi.
Aylar ötüşdükcə sağalırdı qız,
Uzandı ay şair diyəsən bu söz.
Yığışdır sən artıq xəstə həyatın,
Sən söylə bu qızın gözəl həyatın.
Allahın izniylə dirilər ölü,
Yenə çiçək açar çöllərin gülü.
Qız artıq sağalıb ayağa qalxır,
Ayıq gözləriylə həyata baxır,
Qayıtmır bu ceyran ovçuya geri,

Qəlbində boş qalır ovçunun yeri.
Ceyrana nə qədər ovçu yalvarır,
Qızın ürəyinə yol salammayır.
Yalvarır,yaxarır başına dönür,
Ulduz tək parlayır,ulduz tək sönür.
Dolanır yenidən o tələ qura,
Ceyranla ömrünü bir başa vura.
Ceyran məhəl qoymur onun sözünə,
Keçmişi dərs edib bu qız özünə.
Ay ovçu bu qədər yalvarmaq olmaz.
Atılan ox daha geri qayıtmaz.
Bilmədin əlində olanın qədrin,
Düşmərəm bir daha toruna sənin.
Məndən uzaq dolan,uzaq vəfasız.
Ağır gündə məni buraxdın yalqız.
Bu qırıq qəlbimə mən köz basaram.
Nə qədər ömrüm var sənsiz yaşaram.
Qədlətdən oyanıb bu qız beləcə,
Məndə bu sözləri düzdüm sətirə.
Yaşa mənim bacım,vüqarla yaşa,
Ömrün qabaqdadır çatmayıb başa.
Allahın ölümdən qaytarıb səni.
Məsləhət verirəm sən dinlə məni.
Tutmusan düz yolu bu yolunla get,
Gəlcək həyatda muradına yet.
Düşünüb keçmişi üzmə qəlbini.
Gələcək xoş günlər gözləyir səni.
Bir gün ürəyincə aşiq gələcək.
Gözündən silinən yaşı siləcək.
Ümüdünü üzmə,böyükdü Allah,
Allaha inanan büdrəməz vallah.
Bu qədər düşünüb üzmə özünü,
Belə bitirirəm məndə sözümü.

Həyatda büdrəmə bərk dayan bərk dur,
Qumru daha bəsdi son nöqtəni vur.
Təşəkkür eylə sən Asif məllimə,
Bu gözəl mövzunu o verib sənə.

***21.05.2003***

## MÜNDƏRİCAT

Ön söz ........ 3
Ömrün poetik ürəyi........ 4

***Mən qurban olaram Vətənə, sənə ........ 6***
Yenilməz Rəhbər ........ 7
Heydər Naxçıvanın mərd balasıdır........ 7
Xalqına dayaqsan ........ 8
Mən qurban olaram Vətənə, sənə ........ 9
Söz verirəm........ 10
El qızıyam........ 11
Birləş mənim xalqım ........ 12
Qanlı 20 yanvar ........ 13
Gəlin görüşünə laləli dağın........ 15
Şeirlərim öz dünyamdır ........ 16

***Sənsiz öləmmərəm........ 17***
Qayıt gözəlim........ 18
Əhv etməm........ 19
Gəl köməyə ........ 20
Bu imiş........ 21
Çor demə........ 22
Sən eşqimi çal........ 23
Xumar sözlü........ 24
Sənsiz öləmmərəm........ 25
Açammadım qəlbimi ........ 26
Qəlbində yaşaram........ 27
Eşqimi əlimdən ala bilməzsən........ 29

Nakam eşqin ninnisi ........ 30
Səssiz olub otağım ........ 31
Brilyant ........ 32
Üzümə gülümsə ........ 33
Yanaqlarım nəm ........ 34
Xəyalımdasan ........ 35
Sevgisi yaşar ........ 36
Mən mələyəm ........ 37
Ayrıldın ........ 38
Taleyimdən umdum, küsdüm, gəlmədin ........ 39
Gözlərin sənin ........ 41
Vəfasız ........ 41
Məni yad gözlərdən qoruyan vardı ........ 43
Qayıt, gəl gülüm ........ 43
Gəl barışaq ........ 44
Qaytar eşqimi ........ 45
Niyə bezirsən ........ 46
Söylə nə xaldı ........ 47
Qala bilmirəm ........ 48
Çatacağam mən ........ 49
Günah edirsən ........ 50
Arzuya çatdır məni ........ 51
Səni sevdiyindən ayırdı fələk ........ 52
Hayandadı ........ 53
Dönük sevdalım ........ 54
Nakam gedirəm ........ 55
Yandıracaqsan ........ 55
Nə arzulayım? ........ 56
Gülə bilmədim ........ 57

***Dünya səndən gileyim yox*** ........................................ ***59***
Atamın öyüdləri ........................................ 60
Balımsan mənim ........................................ 62
Oğluma təbrik ........................................ 63
Tez gəl Vüsal ........................................ 64
Ümüd oyanır ........................................ 65
Qoyma ki, dərd səni sındırsın qardaş ........................................ 66
El üçündür ........................................ 67
Bala ........................................ 68
Bu boyda olsun ........................................ 68
Oxşamalar ........................................ 69
Əhəd ........................................ 72
Məhəmmədim ........................................ 73
Məsumə ........................................ 74
Önəmsən bala ........................................ 74
Nə qədər darııxdım ........................................ 75
Goşmur ürəyim ........................................ 77
Pislik eyləmə ........................................ 77
Taleyin gülər üzünə ........................................ 78
Yuvam olub boş ........................................ 80
Təzə ilham verdi mənə ........................................ 81
Mövzum yox ........................................ 83
Köməyin olsun ........................................ 84
Cahillik eylədin ........................................ 84
Mənim şair qardaşım ........................................ 85
Dostluq ........................................ 87
Allahın əmrini icra edirəm ........................................ 88
İlhamına alqış ........................................ 89
Ana qeyrəti ........................................ 90

Tənha bülbül ........................................................................ 91
Sağ ol eloğlu ........................................................................ 92
Hissini sənətə sən qurban etdin ................................. 92
Rahat uyuyar ........................................................................ 93
İzim qalacaq ........................................................................ 95
Gül yenə ........................................................................ 96
Bəlkə ozanam ........................................................................ 97
Dünya səndən gileyim yox .......................................... 98
Qızlar ........................................................................ 99
Deyək mübarək .................................................................. 100
Gəlişin bəzəsin mənim ömrümü .............................. 101
Gənc qızın taleyi .............................................................. 101